Bayramın mübarək, Müstəqil Azərbaycan!

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

№42 (1037) 18-24 oktyabr 2018-ci il

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## İlham Əliyev: Bu gün Azərbaycan öz sürətli inkişaf dövrünü yaşayır və bu inkişaf bütün bölgələrdə özünü büruzə verir



Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Lənkərana səfəri çərçivəsində Lənkəran İstisu və Sağlamlıq Mərkəzinin təqdimatı olub.

Lənkəranın Haftoni qəsəbəsində inşası yenicə başa çatan Lənkəran İstisu və Sağlamlıq Mərkəzi ölkəyə turist axınının güclənməsi istiqamətində həyata keçirilən əsaslı addımlardan biridir. Təxminən 11 hektar sahəsi olan kompleksdə otel, tibb mərkəzi və müxtəlif termal hamamlar fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərkəzdə görülən işlərlə tanış olmuşlar.

Layihə rəhbəri Nəriman Topçubaşov məlumat vermişdir ki, Lənkəran İstisu Sanatoriyası ilk dəfə 1958-ci ildə istifadəyə verilib. 1974-cü ildə ərazidə dördmərtəbəli sanatoriya binası inşa edilib.

Lənkəran İstisu və Sağlamlıq Mərkəzinin inşasına 2016-cı ilin noyabrında başlanılıb. Mərkəzin 182 nömrəlik otel binası ən yüksək standartlar səviyyəsində inşa olunub. Kompleksə daxil olan digər xidmət sahələrinin inşası davam etdirilir. Mərkəzdə yerləşən ikimərtəbəli tibb mərkəzi də müasir avadanlıqla təchiz edilib.

Bildirildi ki, Lənkəran İstisu və Sağlamlıq Mərkəzində qan dövranı, sinir, sümük-əzələ sistemləri, birləşdirici toxumanın, tənəffüs orqanlarının, həzm sisteminin xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozuntuları, dəri və dərialtı toxumanın və sidik-cinsiyyət sistemi xəstəliklərinin müalicəsi nəzərdə tutulub. Mərkəzin fəaliyyətə başlaması əksəriyyəti yerli işçilər olmaqla təqribən 250 nəfər üçün iş yerinin yaranmasına səbəb olacaq.

Komplekslə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayon ictimaiyyətinin nümayəndələri və müəssisənin kollektivi ilə görüşmüş, dövlət başçısı görüşdə çıxış etmişdir.

* * * * *

Oktyabrın 15-də Lənkəran Olimpiya İdman Kompleksinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

* * * * *

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Lənkəran rayonuna səfəri çərçivəsində "Azərişıq" ASC tərəfindən müasir üslubda yeni inşa edilən 110/35/10 kV-luq "Lənkəran-2" yarımstansiyasının açılışı olub.

1974-cü ildə tikilən 110/10 kilovoltluq yarımstansiyanın gərginlik sinfi dəyişdirilərək, 110/35/10 kilovoltluq gərginlik sinfinə keçirilməsi, onun gücünün 32 meqavolt amperdən 50 meqavolt amperə çatdırılması böyük əhəmiyyət daşıyır.

Qeyd edək ki, Masallıda da yenidən qurulan "Tüklə" yarımstansiyasının gücü 32 meqavolt amperə çatdırılıb. 110 kilovoltluq "Tüklə" və "Lənkəran-1" yarımstansiyaları vasitəsilə Masallı və Lənkəran rayonlararası 35 kilovoltluq dairəvi elektrik təchizat sxemi qurulub ki, bu da Lənkəran rayonunda, o cümlədən Liman şəhərində ikinci qida mənbəyinin yaradılması, bununla da hər iki rayonun elektrik təchizatının dayanıqlılığının artırılması deməkdir. Yeni yarımstansiya 70 min əhalini və 516 obyekti elektrik enerjisi ilə təchiz edir.

* * * * *

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Lənkəran filialının açılışında iştirak ediblər.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya ölkəmizdə xalçaçılığın inkişafı və bu müəssisənin fəaliyyəti barədə məlumat vermişdir.

Dövlətimizin başçısı Lənkəranda xalça emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması üçün 2018-ci ilin dövlət büdcəsindən vəsaitin ayrılması barədə Sərəncam da imzalayıb. 2019-cu ildə əlavə olaraq 10 şəhər və rayonda bu cür müəssisələrin tikintisi nəzərdə tutulub. "Azərxalça" ASC-nin artıq istifadəyə tam hazır olan Lənkəran filialı da bu sırada mühüm yerlərdən birini tutur. Burada 150 toxucu və 14 inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub.

Sonra dövlətimizin başçısı və birinci xanım müəssisənin kollektivi ilə görüşüb söhbət etmişlər.

* * * * *

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lənkəran rayonuna səfərləri çərçivəsində Hirkan-Daştatük-Biləsər avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak ediblər.

* * * * *

Oktyabrın 15-də Kənd Təsərrüfatı Nazirliyinin Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzi istifadəyə verilib.

Burada Kənd Təsərrüfatı Nazirliyi və onun tabeli qurumları tərəfindən bitkiçilik, heyvandarlıq və texniki nəzarət xidmətləri üzrə ümumilikdə 63 növ xidmət göstərilir. Mərkəzdə 58 nəfər çalışır.

Qeyd edək ki, Dövlət Aqrar İnkişaf mərkəzlərinin yaradılmasında məqsəd Kənd Təsərrüfatı Nazirliyinin yerli bölmələrinin vahid mərkəzdən idarə olunmasını təşkil etmək, fermerlərlə işin gücləndirilməsi, elektron xidmətlər və innovativ texnologiyadan istifadə ilə bağlı maarifləndirmə işləri aparmaqdır.

* * * * *

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Lənkəran rayonuna səfəri çərçivəsində istifadəyə verilən müəssisələrdən biri də Qida Təhlükəsizliyi Agentliyinin Qida Təhlükəsizliyi İnstitutunun Lənkəran Regional Sınaq Laboratoriyası olub. 8 şöbədən ibarət laboratoriyada inzibati və laborator baxış otaqları yaradılıb. Gün ərzində 300 sınaq aparmaq potensialına malik laboratoriyanın kimyəvi və bioloji tullantıların zərərsizləşdirilməsi, insinerator, soyuducu kamera və vivarium kimi yardımçı tikililəri vardır. Burada kimyəvi tullantıların neytrallaşdırma, o cümlədən bioloji tullantıların ozonlaşdırma texnologiyası əsasında zərərsizləşdirilməsi həyata keçirilir.

* * * * *

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Astara şəhərinin içməli su təchizatı sistemləri" layihəsinin başa çatması münasibətilə keçirilən mərasimdə iştirak edib.

AZƏRTAC xəbər verir ki, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına "Astara şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin tikintisi" layihəsi haqqında məlumat vermişdir.

Prezident İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2015-ci ildə "Astara şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi"nin icrasına başlanılıb. Bildirilmişdir ki, layihə çərçivəsində Astara şəhərində 109 kilometr içməli su şəbəkəsinin inşası tam başa çatıb və bütün abunəçilərə ev birləşməsi verilərək 4300 su sayğacı quraşdırılıb. Layihənin növbəti mərhələsində kanalizasiya infrastrukturunun yaradılması nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev Astara rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Astarada dənizkənarı park-bulvar kompleksinin ikinci hissəsinin tikintisi çərçivəsində yaradılan şəraitlə tanış olub.

* * * * *

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lerik rayonunun Piran-Hamarat-Vijaker avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib.

Dövlətimizin başçısına Lerik rayonunun Noda-Şingədulan-Xanagah avtomobil yolunun tikintisi barədə də məlumat verilmişdir. Otuz min nəfərin yaşadığı və 50 yaşayış məntəqəsini birləşdirən bu avtomobil yolunun tikilməsi bölgədə sərnişin və yük daşınmasını xeyli yaxşılaşdırmağa imkan verəcək.

* * * * *

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Lerik şəhərinin içməli su təchizatı sisteminin yenidən qurulması və ilk dəfə olaraq kanalizasiya şəbəkəsinin yaradılması" layihəsinin icrasının yekunlaşması münasibətilə keçirilən mərasimdə iştirak etmiş, çıxış etmişdir.

Sonra "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə Prezident İlham Əliyevə layihə haqqında məlumat vermişdir.

Bildirilmişdir ki, bu layihə çərçivəsində Lerik şəhərində içməli su şəbəkəsinin və sutəmizləyici qurğunun, çirkab suların şəhər ərazisindən kənarlaşdırılması üçün kanalizasiya şəbəkəsinin və çirkab sutəmizləyici qurğunun tikintisi nəzərdə tutulub. Məlumat verilmişdir ki, Lerik şəhərinin ilk su təchizatı sistemi 1968-ci ildə yaradılıb. Şəhərin yalnız 50 faizi mərkəzləşdirilmiş qaydada fasiləli rejimlə içməli su ilə təmin edilirdi. Ümumiyyətlə, Lerikdə kanalizasiya şəbəkəsi olmayıb. Bu cür layihələrin icrası ölkəmizdə sosial siyasətin uğurla həyata keçirildiyinin əyani göstəricisidir.

* * * * *

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lerik rayonunda gücü 16,5 MVt olan elektrik stansiyasının istismara verilməsi mərasimində iştirak edib.

Bildirilmişdri ki, ölkənin cənub bölgəsinin elektrik enerjisi ilə təminatını yaxşılaşdırmaq məqsədilə "2009-2013-cü illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"na əsasən Lerikin elektrik təchizatı sistemində yenidənqurma işlərinin aparılması çərçivəsində rayonda gücü 16,5 MVt olan elektrik stansiyasının tikintisi həyata keçirilib. Bu layihə bölgənin enerji təminatı baxımından əhəmiyyəti ilə seçilir. Belə ki, regionun enerji təminatının keyfiyyət göstəricilərini yaxşılaşdıracaq stansiya ildə 75 milyon kilovat-saat elektrik enerjisi istehsal etmək imkanına malikdir.

* * * * *

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuş 100 yerlik Lerik şəhər 2 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.

Həmin gün Prezident İlham Əliyev Lerikdə Bayraq Muzeyinin açılışında iştirak etmişdir.



# İlham Əliyev: Quba rayonunun kompleks şəkildə inkişafı diqqət mərkəzindədir



Regionların davamlı inkişafının təmin olunması üçün müasir yol infrastrukturunun yaradılması müstəsna əhəmiyyət daşıyır. Son illərdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla icrası nəticəsində ölkəmizdə magistral, yerli əhəmiyyətli şəhərlərarası və kəndlərarası avtomobil yolları əsaslı şəkildə yenidən qurularaq təkmilləşdirilib, həmçinin yeni avtomobil yolları, körpülər və yol ötürücüləri inşa edilərək əhalinin istifadəsinə verilib. Bu tədbirlərin davamı kimi, Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun H.Z.Tağıyev qəsəbəsindən başlayaraq tikilməsi ilə bağlı Prezident İlham Əliyevin imzaladığı Sərəncam mühüm əhəmiyyət daşıyır. Artıq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi layihənin icrası məqsədilə sürətlə və keyfiyyətlə tikinti işləri aparır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 11-də Quba rayonuna səfər çərçivəsində avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış olublar.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat vermişdir ki, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 45-ci kilometrliyindən, H.Z.Tağıyev qəsəbəsindən başlayan 92 kilometr uzunluğunda olan yol 1B texniki dərəcəyə uyğun inşa edilir. Layihələndirilən magistral yol əsasən yaşayış məntəqələrindən və sənaye müəssisələrindən kənar keçir.

Yeni inşa edilən yol 92 kilometrdən sonra Şabran rayonunun Gəndov kəndindən Rusiya sərhədinədək uzanan 60 kilometrlik yola birləşəcək. Bununla da yeni avtomobil yolunun uzunluğu 152 kilometr təşkil edəcək. Ödənişli olacaq yeni avtomobil yolunun tikintisi nəqliyyat xidmətlərini daha da yaxşılaşdırmaqla yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi ilə yük və sərnişin daşımalarında əsas rol oynayaraq, respublikamızın iqtisadi maraqlarına uyğun olaraq yüklərin, o cümlədən tranzit yüklərin daha geniş cəlb edilməsinə, yük həcminin çoxalmasına və gəlirlərin artmasına, ölkəmizin nəqliyyat infrastrukturunun inkişafına, yeni iş yerlərinin açılmasına və bir çox sosial problemlərin həllinə şərait yaradacaq.

* * * *

Oktyabrın 11-də Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrinin ərazisindəki 50 MVt-lıq "Yeni Yaşma" Külək Elektrik Parkının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Quba rayonuna səfər çərçivəsində açılışda iştirak ediblər.

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev məlumat vermişdir ki, "Yeni Yaşma" Külək Elektrik Parkı bu il yenidən qurulub. Xızı rayonunun Yeni Yaşma və Şuraabad qəsəbələrində yerləşən Külək Elektrik Stansiyasında yenidənqurma işlərini Almaniyanın "Berlin Wind" şirkəti aparıb. Yanvar ayında ilk turbin işə salınmaqla ay üzrə cəmi 200 min kVt/saat elektrik enerjisi istehsal olunurdusa, hazırda 20 külək turbini tam gücü ilə işləyir və elektrik enerjisinin istehsalı ay üzrə 9 milyon kVt/saata yaxındır. Hazırda stansiyanın idarə edilməsi, servis və istismar işləri tamamilə yerli mütəxəssislər tərəfindən icra olunur.

"Yeni Yaşma" Külək Elektrik Parkı Cənubi Qafqazın ən böyük külək elektrik parkıdır. Stansiyanın istismara verilməsi nəticəsində Azərbaycanda alternativ enerjinin ümumi istehsalda payı 0,7 faizdən 1,8 faizədək artacaq.

* * * *

Oktyabrın 11-də Quba rayonunun İdrisqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Aspərəsti-Çayqışlaq avtomobil yolu istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 11 yaşayış məntəqəsini birləşdirən və uzunluğu 33 kilometr olan yolun açılışını edib.

Avtomobil yolunun tikintisi 11 yaşayış məntəqəsini birləşdirərək sərnişin və yük daşınmasını xeyli yaxşılaşdırmağa imkan verəcək. Beləliklə, bu layihənin icrası, ümumilikdə, nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini də təmin edəcək. Yeni yolun inşası yolboyu yaşayan vətəndaşların sosial rifahına birbaşa təsir göstərəcək, kənd təsərrüfatı məhsullarının rahat və tez daşınmasına münbit şərait yaradacaq.

Bundan əlavə, Prezident İlham Əliyevə Quba-Qonaqkənd avtomobil yolunun tikintisinin layihəsi barədə məlumat verilmişdir. Uzunluğu 46 kilometr olan yol üzərində tikiləcək 9 körpünün layihəsi hazırlanıb. Bununla yanaşı, Quba-Susay-Xınalıq avtomobil yolu da yenidən qurulacaq.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 11-də Kənd Təsərrüfatı Nazirliyinin Qubadakı Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun əsaslı təmirdən sonra fəaliyyəti ilə tanış olublar.

Kənd təsərrüfatı naziri İnam Kərimov bildirmişdir ki, Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu 1926-cı ildə fəaliyyətə başlayıb və 1964-cü ildən Quba rayonunun Zərdabi qəsəbəsində yerləşir. İnstitutda 59 nəfər işçi çalışır, onların arasında elmlər və fəlsəfə doktorları var. Prezident İlham Əliyevin 2015-ci ildə imzaladığı Kənd Təsərrüfatı Nazirliyi sistemində fəaliyyət göstərən elmi-tədqiqat müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi haqqında sərəncamına əsasən Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun ümumi sahəsi 3504 kvadratmetr olan inzibati-laboratoriya binası əsaslı təmir edilib, kommunal sistemləri yenilənib, yardımçı təsərrüfat binaları tikilib.

Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunda yaradılan yeni sahələrdə 35 iş yeri açılıb. Burada 73 hektar ərazidə Lənkəran çayçılıq filialı, 19 hektarda Abşeron təcrübə stansiyası, 50 hektarda Qəbələ, 97 hektarda isə Göyçay dayaq məntəqələri yerləşir. Bundan əlavə, Zaqatala dayaq məntəqəsi, Zərdabi elmi təcrübə stansiyası və Quba yardımçı təcrübə təsərrüfatı da institutun balansına daxildir.

Prezident İlham Əliyevə əsas hədəfi ixrac potensialının gücləndirilməsi, bağçılığın dayanıqlı inkişafı, keyfiyyətli məhsul istehsalı və innovativ fermerlərin formalaşmasına dəstək olan "Ağıllı bağ layihəsi" barədə məlumat verilmişdir.

Azərbaycan Prezidentinə "Kənddən Şəhərə" layihəsi haqqında da məlumat verilmişdir.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 11-də Quba Rayon Mərkəzi Xəstəxanasının və 100 yerlik "Günəş" körpələr evi-uşaq bağçasının açılışında da iştirak ediblər.

* * * *

Oktyabrın 11-də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ABAD" (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxsin Qubada "ABAD Factory" İstehsalat Kompleksinin açılışı olub.

Prezidentin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, həmçinin "ABAD" publik hüquqi şəxsin direktoru Rüfət Elçiyev bildirdilər ki, "Quba ABAD Factory" İstehsalat Kompleksinin yerləşdiyi bina 1956-cı ildə "Mədəniyyət evi" qismində istifadəyə verilmiş və uzun illər istismar nəticəsində yararsız vəziyyətdə düşmüşdü. İkimərtəbəli binada "ABAD" publik hüquqi şəxs tərəfindən "Paşa Holding"in dəstəyi ilə əsaslı şəkildə təmir-bərpa işləri aparılıb və müasir avadanlıq quraşdırılıb. Kompleksdə bir dəfəyə 140 kiloqram quru meyvə, istehsal gücü saatda 110 kiloqram olan qənnadı məmulatı və 1200 banka olan kompot, gündəlik min litr süd və 600 kiloqram ət məhsulları istehsal edən 5 sahə fəaliyyət göstərəcək.

"Paşa Holding"in dəstəyi ilə "ABAD" publik hüquqi şəxs tərəfindən həyata keçirilən "ABAD Gastro Village" layihəsi çərçivəsində isə "Quba ABAD Factory"-nin önündə "Food truck park"ı yaradılıb. Qeyd edək ki, ölkədə turizm sahəsində müşahidə olunan inkişaf meyillərinin saxlanılması üçün daim yeni və cəlbedici ictimai iaşə xidmətlərinin təklif edilməsi zəruridir. Bu baxımdan təkərli qoşqular vasitəsilə icra edilmiş "ABAD Gastro Village" layihəsinin ölkəmizin müxtəlif bölgələrində, əsasən də şimal rayonlarında səyyar şəkildə fəaliyyət göstərmək imkanına malik olması və tərtibat baxımından cəlbedici görünməsi bu layihənin uğurlu olacağını deməyə əsas verir. "ABAD Gastro Village" kompleksinin səyyar yerdəyişmələr istisna olmaqla daimi dayanıb-durma nöqtəsi Quba "ABAD Factory"nin önündə təşkil edilmiş "Food truck park"ındadır. Burada dönər, burger, şirniyyat və pizzaların hazırlanması və satışı nəzərdə tutulub. "Quba ABAD Factory" və "ABAD Gastro Village" komplekslərində, ümumilikdə, 90-100 nəfər vətəndaşın məşğulluğu təmin ediləcək.

* * * *

Oktyabrın 11-də "Qubaekoaqrar" Məhdud Məsuliyyətli Cəmiyyətinin kənd təsərrüfatı mallarının istehsalı zavodu istifadəyə verilib. İqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısına Quba-Xaçmaz iqtisadi rayonunda İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun maliyyə dəstəyi ilə regionda yaradılan və fəaliyyəti genişləndirilən müəssisələr barədə məlumat vermişdir. Bildirmişdir ki, bu iqtisadi rayonda ümumi dəyəri 376 milyon manat olan 2624 layihənin maliyyələşdirilməsinə 201 milyon manat güzəştli kredit verilib. Bu çərçivədə yaradılan müəssisələr xarici ölkələrə məhsul ixracına başlayıb. Belə ki, Xaçmazdakı fındıq emalı zavodu ötən il 2 milyon dollar dəyərində fındıq, Logistika Mərkəzi və meyvə emalı zavodu 500 min dollar dəyərində quru meyvə, Qusarda Regional Logistika Mərkəzi isə 6,2 milyon dollarlıq meyvə ixrac edib. Keçən il 186,4 min hektar meyvə bağından, ümumilikdə, 955 min ton meyvə istehsal olunub. Məhsulun 29 faizi əsasən Rusiya, Ukrayna, İtaliya, İsveçrə və Almaniya olmaqla, xarici bazarlara ixrac edilib. Ötən il Quba-Xaçmaz iqtisadi rayonu üzrə 263,3 min ton meyvə yığılıb ki, bunun 125,2 min tonu Qubanın payına düşür.

"Qubaekoaqrar" MMC-nin kənd təsərrüfatı mallarının istehsalı zavodu sutkada 4 ton fındıq və 2 ton quru meyvə istehsalı gücünə malikdir. İstehsal olunan məhsulların daxili bazarla yanaşı, "Made in Azerbaijan" brendi adı altında xarici bazarlara, xüsusilə Rusiya və ərəb ölkələrinə ixracı nəzərdə tutulur.

Zavodun xammala olan tələbatı Quba və ətraf rayonlardan tədarük edilən məhsullar hesabına ödəniləcək. Bu isə kiçik ailə təsərrüfatlarının inkişafına müsbət təsir göstərəcək və regionda yeni meyvə bağlarının salınmasına stimul yaradacaq. Eyni zamanda, yetişdirilən meyvələr emal olunaraq xarici bazarlara çıxarılacaq ki, bu da regionun ixrac potensialının artırılmasına səbəb olacaq.

# Doqquz ayda 423,7 milyon manat büdcə profisiti yaranıb



2018-ci ilin doqquz ayı üzrə dövlət büdcəsinin icrasına (operativ) dair məlumat açıqlanıb.

Maliyyə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, bu ilin doqquz ayında dövlət büdcəsinin mədaxili 16089,7 milyon manat, xərcləri 15666,0 milyon manat olub, 423,7 milyon manat məbləğində büdcə artıqlığı (profisit) yaranıb.

2018-ci ilin doqquz ayında dövlət büdcəsinin mədaxili 15887,5 milyon manat proqnoza qarşı 16089,7 milyon manat və ya 1,3 faiz çox icra olub ki, bu da 2017-ci ilin eyni dövrü ilə müqayisədə 4044,6 milyon manat və ya 33,6 faiz çoxdur.

Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən mədaxil proqnozu 100,1 faiz icra edilməklə dövlət büdcəsinə 5305,7 milyon manat vəsait təmin edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 80,9 manat və ya 1,5 faiz çoxdur.

Həmin vəsaitin 65,8 faizi və ya 3491,2 milyon manatı qeyri-neft sektorundan daxilolmaların payına düşür.

2018-ci ilin doqquz ayında Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi proqnoza 108,3 faiz əməl edərək, dövlət büdcəsinə 2600,4 milyon manat vəsait təmin edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 648,8 milyon manat və ya 33,2 faiz çoxdur.

Dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmaları 321,5 milyon manat təşkil edib ki, bu da 2017-ci ilin eyni dövrü ilə müqayisədə 74,8 milyon manat və 30,3 faiz çoxdur.

Sair daxilolmalar üzrə büdcəyə 74,1 milyon manat vəsait daxil olub.

Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə 7788,0 milyon manat vəsait transfert edilib.

2018-ci ilin iyul-sentyabr ayları üzrə dövlət büdcəsinin mədaxili üzrə 6274,4 milyon manat vəsait daxil olub.

2018-ci ilin doqquz ayında dövlət büdcəsinin xərcləri proqnoza nisbətən 98,0 faiz və ya 15666,0 milyon manat icra olunub ki, bu da 2017-ci ilin eyni dövrü ilə müqayisədə 2882,3 milyon manat və ya 22,5 faiz çoxdur.

İqtisadi təsnifata uyğun olaraq cari ilin doqquz ayında dövlət büdcəsi xərclərinin 34,5 faizi və ya 5410,1 milyon manatı sosialyönlü xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəldilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 545,1 milyon manat və ya 11,2 faiz çoxdur.

2018-ci ilin altı ayında dövlət büdcəsi xərclərinin 7708,8 milyon manatı və ya 49,2 faizi cari xərclərə, 6235,4 milyon manatı və ya 39,8 faizi əsaslı xərclərə, 1721,8 milyon manatı və ya 11,0 faizi dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə yönəldilib.

Cari ilin doqquz ayında dövlət əsaslı vəsait qoyuluşu xərclərindən elm, təhsil, səhiyyə, sosial, mədəniyyət, idman və digər sosial-mədəni və məişət təyinatlı obyektlərin tikintisinə və yenidən qurulmasına 686,2 milyon manat, enerji, su təchizatı, nəqliyyat, kommunal, meliorasiya infrastrukturlarının tikintisinə, yenidən qurulmasına və digər sahələrə 2799,5 milyon manat, o cümlədən Naxçıvan Muxtar Respublikasında həyata keçirilən investisiya layihələrinin maliyyələşdirilməsinə dövlət büdcəsinin dövlət əsaslı qoyuluşu xərclərindən 80,0 milyon manat vəsait yönəldilib.

Cari ilin iyul-sentyabr ayları üzrə dövlət büdcəsinin xərcləri 6141,7 milyon manat icra olunub.

Cari ilin doqquz ayında icmal büdcənin gəlirləri 23859,6 milyon manat, icmal büdcənin xərcləri isə 17979,9 milyon manat icra olunub. İcmal büdcənin artıqlığı 5879,7 milyon manat təşkil edib.

# Bu il Azərbaycana 1,59 milyard kubmetr qaz idxal olunub



SOCAR bu ilin üçüncü rübündə qazma işlərin həcmini artırmaqla neft hasilatını sabitləşdirməyə, təbii qaz hasilatını isə önəmli dərəcədə artırmağa nail olub. Rüb ərzində SOCAR üzrə hasilat 1,9 milyon ton neft və 1,67 milyard kubmetr qaz təşkil edərək, əvvəlki ilin analoji göstəriciləri ilə müqayisədə müvafiq olaraq 1,5 faiz və 11 faiz nisbətində çox olub. Ümumiyyətlə, cari ilin doqquz ayında respublika üzrə 29 milyon ton neft və 22 milyard kubmetr təbii qaz hasil olunub. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkə üzrə neft hasilatında təqribən 0,8 faiz, qaz hasilatında isə 4,5 faiz artıma nail olunduğunu göstərir.

Rüb ərzində SOCAR tərəfindən 42 min metrdən çox qazma işi həyata keçirilib ki, bu da əvvəlki ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 43 faiz çoxdur. SOCAR üzrə hasilatın sabitləşməsi üçün qazma həcminin artırılması ilə yanaşı, köhnə quyular da bərpa olunur, daha əvvəl istismardan çıxarılmış quyularda əsaslı təmir, geoloji-texniki tədbirlər aparılmaqla həmin quyularda hasilat bərpa edilir.

Bu ilin 9 ayı ərzində Azərbaycana 1,59 milyard kubmetr qaz idxal olunub və 6,48 milyard kubmetr qaz ölkədən ixrac edilib. Ölkəyə idxal olunan və ölkədən ixrac edilən qaz həcmləri üzrə ötən ilin müvafiq dövrü ilə müqayisədə müvafiq olaraq 22,6 faiz və 5,8 faiz artım qeydə alınıb. Doqquz ay ərzində SOCAR 871,8 milyon kubmetr qaz ixrac edib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,5 faiz çoxdur.

SOCAR Azərbaycanda öz imkanları ilə hasil etdiyi bütün təbii qaz həcmini Azərbaycan bazarına yönləndirir. Üçüncü tərəflərdən alınan qaz həcmləri isə əsasən ixrac üçün istifadə olunur və Azərbaycana əlavə gəlir qazandırır. Hazırda SOCAR-ın Azərbaycandakı qaz anbarlarında qış ayları üçün 3 milyard kubmetrdən çox qaz tədarük edilib.

Şirkət üzrə üçüncü rübdə xam neftin ixracı 6 milyon ton təşkil edib. Beləliklə, SOCAR-ın xam neft ixracı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 9,3 faiz artıb. Rüb ərzində SOCAR üzrə Azərbaycandan 465,8 min ton neft emalı və neft-kimya məhsulu ixrac edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 43 faiz çoxdur.

# Azərbaycan hər yerdə böyük gələcəyi olan nüfuzlu bir ölkə kimi tanınır

*1991-ci ilin 18 oktyabrını hamı xatırlayır. Bu tarix xalqın yaddaşında əbədi qalacaq. Çünki 18 oktyabr Azərbaycanın dönüş tarixidir, müstəqillik tarixinin yenidən bərpası, başlanğıc nöqtəsidir. Məhz bu gün Azərbaycan dövlətinin taleyində 2-ci dəfə müstəqilliyin bərpası kimi qeyd olunur.*

*Həmin gün Müstəqillik Aktı qəbul olundu. Xalq yenidən və bu dəfə əbədi olaraq azadlığını qazandı. Xatırlayırsızsa, Müstəqillik Aktının qəbul olunduğu gün Ali Sovetin sessiyasına sədrin birinci müavini akademik Ziyad Səmədzadə başçılıq edirdi. Düşündük ki, tariximizin o səhifələrini Ziyad müəllimin özü ilə vərəqləmək maraqlı olardı.*

* * *

**- Ziyad müəllim, Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümüdür. Bu illər ərzində nələrə nail olduq, nələr qazandıq?**

- Azərbaycanın dövlət müstəqilliyinin 27 yaşı tamam olur. Tarixən bu, qısa bir dövrdür, lakin bu 27 il ərzində Azərbaycan, bəlkə də əsrə bərabər yeni bir yol keçmişdir. Bu yol hamar olmayıb. Çox çətinliklərdən keçib. Hər şeyin başlanğıcı çətin, mürəkkəb olur. Lakin bu, bir həqiqətdir ki, artıq Azərbaycan müstəqil dövlət kimi dünyada tanınır. 1991-ci ildə Azərbaycan tarixində çox nadir hadisə baş verdi. SSRİ məkanında yeni müstəqil dövlətlərin yaranması prosesi getdi və Azərbaycan 2-ci dəfə müstəqil dövlət kimi elan olundu. O anları mən xatırlayarkən, təbii ki, müəyyən həyəcan hissləri keçirirəm. Çünki həmin illərdə Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi həyatı çox gərgin idi. Azərbaycan cəmiyyətinin bütün sahələrində böhran meyilləri güclənməkdə davam edirdi. Azərbaycan xalqı artıq qəti əmin idi ki, SSRİ hökuməti Azərbaycanın qədim diyarı olan Qarabağ problemini həll etmək niyyətində deyildir. Əksinə, açıq-aşkar görünürdü ki, SSRİ hökuməti, başda Qorbaçov olmaqla Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında maraqlı deyil. Konkret faktlar var ki, İttifaq hökuməti, Qorbaçov məhz erməni millətçilərini dəstəkləyirdi. Bu illərdə azadlıq məfhumu tez-tez işlənirdi. Yalnız azadlıq bizə imkan verə bilərdi ki, biz gələcəkdə öz taleyimizi həll edək. Və 1991-ci ilin 18 oktyabrında artıq bu, qanuni şəkildə həll olundu. Taleyin hökmüydü, qismətdir, nədir, həmin tarixdə Ali Sovetin sədrinin birinci müavini idim və sessiya iclasına mən sədrlik edirdim. Təbii ki, bu zalda çox yüksək gərginlik var idi. Müstəqillik Aktının ayrı-ayrı maddələri ilə bağlı müxtəlif radikal fikirlər səslənirdi. Lakin bu gərginliyin arxasında hec bir qarşıdurma yox idi. Çünki Azərbaycanın müstəqilliyini istəyənlər həddindən artıq çox idi. Müzakirələrdən sonra deputatlar yekdilliklə Müstəqillik Aktını qəbul etdilər. Bu Aktın qəbul edilməsi ilə Azərbaycan tarixində yeni mərhələ başlandı.

Bütün dünyanın aparıcı informasiya agentlikləri Azərbaycanın bir müstəqil dövlət kimi elan olunmasını bəyan etdilər. Sessiyadan sonra mən bir qrup deputat ilə Azadlıq meydanında bir neçə yüz min əhalinin qarşısında çıxış da etdim. İclası bağlayarkən aşağıdakı sözləri dedim: “Gəlin, bu gün, sözün əsl mənasında, yekdil olaq. Gəlin, vətənimiz Azərbaycanda iqtisadi və siyasi reformaları həyata keçirmək üçün hər cür xırda hisslərdən uzaq olaq. Biz mürəkkəb və çətin imtahan qarşısındayıq. Biz müstəqil ölkənin iqtisadi və milli siyasətini formalaşdırmalıyıq. Yenə deyirəm: bu, çox məsul vəzifədir. Gəlin, məhz bu amal üçün birləşək. Bugünkü yekdil qərarımız sübut etdi ki, biz birləşməyi bacarırıq”.

**- Müstəqillik Aktının qəbulundan sonra Azərbaycanın yaşadığı əsas çətinliklər nədən ibarət idi?**

- Təbii ki, 27 il ərzində, xüsusilə də, ilk illərdə Azərbaycan çox böyük çətinliklərlə üzləşdi. Hər halda, SSRİ məkanından ayrılmış bir dövlətin, respublikanın özünü müstəqil elan etməsi, heç şübhəsiz, böyük bir hadisə idi. Amma onu qorumaq, saxlamaq daha çətin idi.

Bəzən məndən soruşurlar ki, taleyindən bir vətəndaş, bir ziyalı, bir alim və ictimai xadim kimi razısanmı? Mən isə bu suala belə cavab verirəm: “Çox razıyam”. Razıyam, ona görə ki, artıq Azərbaycan müstəqil dövlət kimi yaşayır, inkişaf edir və biz bu hadisənin canlı şahidləriyik. Taleyimdən bir də ona görə razıyam ki, o sessiyanın iclasına mən sədrlik etmişəm. O ki qaldı müstəqilliyi qoruyub saxlamağa, Azərbaycan kimi o qədər də böyük olmayan bir dövlət üçün nəinki asan, hətta qat-qat çətin idi. Mərhum Heydər Əliyev dəfələrlə bu barədə deyib ki, “Müstəqilliyi qazanmaq çətindirsə, onu qoruyub saxlamaq da o qədər çətindir”.

**- Müstəqillik haqqında Konstitusiya Aktının hazırlanmasında əməyi olan insanları xatırlayaq.**

- Bilirsiniz, xalqın taleyini xalq özü həll edir. Təbii ki, hər hansı bir qanunun hazırlanmasında müəyyən insanlar işləyir. Ona görə də taleyüklü qanunlar təkcə bir neçə deputatın, bir neçə məmurun, bir neçə ziyalının əməyinin nəticəsi deyil. Azərbaycanın müstəqilliyi uğrunda mübarizə, azadlıq ideyalarının formalaşması, təşəkkülü bütünlüklə xalqa məxsusdur. Bu məsələ ilə də əlaqədar işçi qrupu yaradıldı. Müvafiq işçi qrupu daimi komissiyalar və cəlb edilmiş mütəxəssislərlə birlikdə müzakirələr aparır, qanun layihəsi ilə bağlı təkliflərə öz münasibətini bildirirdi.

Mən çıxışlarımda həmişə demişəm ki, Müstəqillik haqqında Aktın müəllifi Azərbaycan xalqıdır. Mənim otağımda dəfələrlə müzakirələr olub. İstər komissiyalarda, istərsə də sessiyada keçirilən müzakirələrdə görkəmli yazıçı İsmayıl Şıxlı, çox gözəl hüquqşünas, 20 ilə yaxın Ali Məhkəmənin sədri işləmiş Abdulla İbrahimov, Tofiq Bağırov kimi ictimai xadim, həmçinin iqtisadçılar, hüquqşünaslar, demokratik qüvvələri təmsil edən deputatlar iştirak edirdilər.

O vaxt yüz minlərlə insan “Azadlıq” meydanına yığışmışdı. Çünki onlar azadlıq ideyaları ilə yaşayırdılar və arzulayırdılar ki, xalqımız Azərbaycanın sərvətlərinin sahibi olsunlar, ölkəmizin ərazi bütövlüyü təmin olunsun, xalq azad, müstəqil dövlətdə yaşasın. Burada ziyalılar da, sadə insanlar da iştirak edirdi. Amma, əlbəttə, bu fikirləri ümumiləşdirib parlament sessiyasına çıxaran insanların əməyini biz heç vaxt unutmuruq. Bəzən deyirlər ki, “bunu mən yazmışam, bunu mən etdim” – bunlar xırdaçılıqdır. Azərbaycanın Ali Soveti bu qanun layihəsini bəyənib, yekdilliklə qəbul etdi və bütün xalqa bəyan olundu ki, Azərbaycan müstəqil dövlətdir.

**- Sizin üçün azadlıq, dövlət müstəqilliyi sözləri nəyi ifadə edir? Vətəndaşı mənən müstəqil olmayan dövlət müstəqil ola bilərmi?**

- Müstəqillik dəyəri ölçüyə gəlməyən ümumxalq sərvətidir. Azadlığı alınmış insana “qul” deyildiyi kimi, müstəqil olmayan dövlətə də dövlət məfhumu qətiyyən yaraşmır. Müstəqillik arzular zirvəsidir, milli qürur hissidir. Müstəqillik Azərbaycan xalqının, dövlətçiliyinin tarixində böyük dönüşdür, yeni fəslin başlanmasıdır. Müstəqillik Azərbaycan dövlətçiliyinin beşiyi başında duranların etimadıdır. Müstəqillik insanın özünün özünə ehtiramıdır. Tarixçilərimiz dövlətçilik tariximizin kökünü dörd-beş min il əvvəldə, hətta qədim dövrlərdə tapırlar. Bunun özü də bizimçün müstəqilliyin necə qiymətli bir nemət olduğunu sübut edir.

Lakin o da doğrudur ki, hüquqi azadlıq tam azadlıq sayıla bilməz. Tarix göstərir ki, müxtəlif dövrlərdə hüquqi azadlıq olsa da, vətəndaşı əzilən dövlətlər də olub. Lakin bu natamamlıq çox çəkməyib. Ona görə də müstəqilliyi hərtərəfli qiymətləndirmək lazımdır.

**- Dünəndən, yəni 1991-ci ilin 18 oktyabr pəncərəsindən bu günə, yəni 2018-ci ilin 18 oktyabr tablosuna baxdıqda qazandıqlarımız və itirdiklərimiz necə görünür?**

- Heç şübhəsiz ki, bu 27 il ərzində qazandığımızı bir yazıda ifadə etmək qeyri-mümkündür. Bu gün Azərbaycanın dövlətlər arasında imzası var. Bu məqamda M.Hadinin “yox millətimin xətti bu imzalar içində” misrasını xatırlayıram. Bu gün isə dünyanın çoxsaylı dövlətləri siyahısında bu imza var və “Azərbaycan Respublikası” inamla səslənir. Əlbəttə, müstəqil dövlət adını qazanmaq və onu qorumaq çox ciddi məsələdir. Biz milli mədəniyyətimizi, milli tariximizi, milli ədəbiyyatımızı, bütün milli dəyərlərimizi qorumaq üçün yeni imkanlar qazanmışıq.

Müstəqillik Azərbaycan cəmiyyətinə yenilik gətirdi. Ölkə artıq dağılmış köhnə bir sistemin əvəzinə təzə bir sistem yaratmalı idi. Özü də bu yeni ictimai-siyasi və iqtisadi sistem əvvəlki sovet sistemindən köklü dərəcədə fərqli olmalıydı. Bu iqtisadi sistemin mahiyyəti ondan ibarət idi ki, SSRİ xalq təsərrüfatının əvvəlki sərt planlaşdırma sistemi əvəzinə sərbəstliyə, azadlığa, vahid mərkəzdən idarə olunan ideologiyaya zidd bir sistem formalaşsın. Amma bu da çox çətin bir iş idi. Çünki insanlar uzun müddət mərkəzdən idarə olunma prinsipinə öyrəşmişdi. Hər şey yuxarıdan deyilməli, hər bir vəzifəli şəxs yuxarıdan təyin edilməlidir. Lakin yeni müstəqil dövlət özünün idarə edilməsi sistemini qurmalı və idarə etməliydi. Bir sözlə, Azərbaycan öz iqtisadiyyatını müasir tələblərə, bazar münasibətləri şəraitinə, dünya standartları tələblərinə uyğun olaraq qurmalıydı. Eləcə də Azərbaycan cəmiyyətindən bütün bu yeni siyasi-iqtisadi sistemin tələblərinə uyğun insanlar formalaşmalıydı. Ona görə bir iqtisadi-siyasi sistemdən digərinə keçmək üçün yeni müstəqil dövlət keçid dövrünü yaşamalıydı. Tarix boyu da belə olub. Lakin əgər dövlətin qurmaq, idarə etmək siyasəti düzgün olarsa, itkilər də az olacaq. Müstəqilliyin ilk illərində səhvlər daha çox buraxılırdı ki, bu da ölkədə kəskin qarşıdurma proseslərini gücləndirirdi. Özünü demokrat adlandıran insanlar səriştəsiz yol göstərirdilər. Və bütün bunlar Azərbaycanın iqtisadi-sosial həyatına ciddi təzyiq göstərirdi. İş o yerə çatmışdı ki, Ali Sovetin sessiya iclaslarını apararkən bizim ətrafımızda özlərini əsl demokrat kimi qiymətləndirən insanlar silahla bizi hədələyirdilər… İqtisadiyyatda da vəziyyət getdikcə gərginləşirdi. Yeni müstəqil dövlətin dağılması təhlükəsi güclənirdi. Eyni zamanda, biz Azərbaycanın cənub bölgəsində müstəqilliyimizə zərbə vurmaq məqsədi daşıyan başqa hadisələrlə üzləşməli olduq.

Bir hadisəni xatırlatmaq istəyirəm: **1989-cu ildə oxuculara tanış olan Ə. Hümbətovun başçılıq etdiyi dəstə Astaradan keçən İran-Azərbaycan yolunu kəsmişdi, buna görə də ciddi problemlər yaranmışdı. Biz bir neçə gün onunla danışıq aparıb yolun açılmasına nail ola bildik. Sözüm ondadır ki, ümumiyyətlə, seperatçılığın təhlükəsini bütün qanımla, canımla duyduğum üçün “Talış Muğan Respublikası” barədə informasiya verilən kimi, mən bu addımın Azərbaycan dövlətçiliyinin əleyhinə olduğunu “Azərbaycan” qəzetində işıq üzü görən “Vətənin dar günündə” adlı məqaləmdə qeyd etdim (31.08.1993).**

**- Siz Azərbaycan iqtisadiyyatında olan vəziyyətlə bağlı araşdırmalar aparırdınızmı?**

- Bəli. 1993-cü ilin sentyabr ayında “Azərbaycan” qəzetində mənim “İqtisadiyyatı belə idarə etməzlər” başlığı ilə məqaləm dərc olundu. Açığını deyim ki, bu, çox sərt, ciddi bir yazı idi və mənə qarşı o dövrdə respublikaya rəhbərlik edən radikal islahatçılar çox kəskin mövqe tutmuşdular. Bu məqalədən bir-iki cümlə qeyd edim:

*“… Azərbaycan iqtisadiyyatı ağır, yorucu müharibə aparan bir ölkənin iqtisadiyyatıdır. Əslində isə sərt hərbi şərait nəzərə alınmaqla xalq təsərrüfatımızı yenidən qurmaq üçün hətta lazımi cəhdlər də edilmir. Ümumiyyətlə, ölkəmizin iqtisadiyyatı bir neçə il düşmənin işğalı altında olan və çox iri təzminat ödəyən dövlətin iqtisadiyyatını xatırladır. Son il yarım ərzində Azərbaycanın təbii resurslarının talan edilməsi ümumi hal almışdır, halbuki iqtisadi təhlükəsizlik siyasətinin prioritetliyi başlıca məsələ olmalıdır...”*

*“... Azərbaycan xalqının bugünkü, xüsusilə son bir ildə faciəsi düşünülməmiş, reallıqdan uzaq olan, elmi əsası olmadan yeridilən dövlət siyasətinin nəticəsidir. Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra iqtisadiyyatımızın qısa bir müddətdə çiçəklənməsi ilə bağlı çoxlu vədlər verildi. Həqiqətdə isə bir sistemin dağılması və yeni sistemin qurulmasını bəyan edən Xalq Cəbhəsinin reallığa uyğun gələn heç bir proqramı yox idi. Milli iqtisadiyyatımıza böyük zərbə vuran eksperimentlərin tətbiqi adi bir hala çevrildi...” (23.09.1993).*

Vətənin dar günündə hadisələr respublikada elə inkişaf edirdi ki, nəinki müstəqilliyi qorumaq, eyni zamanda, onun itirilməsi təhlükəsini artırırdı. Xalq Heydər Əliyevin hakimiyyətə qayıdışını tələb edirdi, çünki xalq bilirdi ki, heç bir yaşı tamam olmamış müstəqil Azərbaycanı bu ağır vəziyyətdən yalnız o çıxara bilər. Heydər Əliyevin dövləti səriştəli idarəetmə məharəti, tətbiq edəcəyi çox düşünülmüş təşkilati tədbirlər, şəxsi nüfuzu, müəyyən edəcəyi siyasət Azərbaycanın müstəqilliyinin qorunmasının əsaslarını qat-qat möhkəmləndirəcəkdi. O dövrdə ölkənin maliyyə vəsaitləri yox idi. Əhalinin vəziyyəti gündən-günə ağırlaşırdı. Ərzaq malları, xüsusilə də çörək qıtlığı yaranmışdı.

1993-2018-ci illərin materiallarının müqayisəli təhlilindən çoxsaylı nəticələr çıxarmaq mümkündür, lakin onlardan yalnız birini qeyd edərdim: 1993-cü ildə Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ölkəmizin həyatında yeni bir mərhələnin əsasını qoydu. Azərbaycan iqtisadiyyatına güclü investisiya axını başladı, irimiqyaslı layihələrin həyata keçirilməsi ilə bağlı böyük işlər görüldü, yeni iqtisadi sistemin əsasları formalaşdırıldı.

**-“Tarix sübut edir ki, Azərbaycana həmişə və həmişə birlik lazımdır” – müsahibələrinizdə bu, tez-tez səslənir. Bəs, bu gün necə, o birlik varmı?**

- Heç şübhəsiz ki, bu gün Azərbaycan cəmiyyətində xalqın əhval-ruhiyyəsində, dünənə, bu günə və sabaha baxışlarında çox böyük dəyişikliklər var. Azərbaycan iqtisadiyyatıyla bağlı ən mühüm məsələlər barədə ümumi fikir formalaşıb. İnkişaf strategiyasının prioritetləri müəyyənləşdirilib. Yoxsulluq, əzab-əziyyət içərisində yaşayan, müstəqilliyini itirmək təhlükəsi ilə üzləşən Azərbaycan cəmi 25 ildən sonra dinamik, keyfiyyətli inkişaf edən, xalqının həyat səviyyəsini yaxşılaşdırmaq istiqamətində iri maliyyə tutumlu layihələr həyata keçirən, özünün milli, iqtisadi, siyasi, ərzaq təhlükəsizliyini təmin edən, beynəlxalq aləmdə nüfuzunu artıran bir dövlətə çevrilmişdir. Bütün bu uğurların kökündə Azərbaycan dövlətinin milli maraqlara cavab verən iqtisadi siyasəti, cəmiyyətdə formalaşmış sabitliyə, inkişafa, vətəndaş həmrəyliyinə xidmət edən dövlət siyasəti dayanır.

**- Bir müstəqil dövlət olaraq nailiyyətlər qazanılması üçün vətəndaşların üzərinə düşən öhdəliklər hansılardır?**

- Dövlət o vaxt inkişaf edir ki, onun inkişafı hər bir vətəndaş üçün maraqlı olsun. “Bunu mən etməməliyəm, dövlət etməlidir” kimi fikirlərdən biz tədricən uzaqlaşmalıyıq. Biz, eyni zamanda, “Sən fikirləşmə ki, dövlət sənin üçün nə edib. Sən fikirləş ki, sən dövlət üçün nə edirsən” prinsipi ilə yaşamalıyıq. Müsahibəmizi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 il əvvəl deyilsə də, bu gün də öz aktuallığını qoruyub saxlayan aşağıdakı sözləri ilə bitirmək istəyirəm:

- “İndi bizim qarşımızda nadir imkanlar var. Sabah, ondan sonrakı illərdə Azərbaycan necə olacaq - bu, bizdən asılıdır. Elə etməliyik ki, güclü dövlət yaradaq, müstəqilliyimizi daha da möhkəmləndirək. Azərbaycanın potensialını tam şəkildə insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldək. Beləliklə, ölkəmizdə vətəndaş cəmiyyəti yaradaq. Azad cəmiyyət, hüquqi dövlət, qanunun aliliyi, güclü iqtisadiyyat, güclü ordu, çevik xarici siyasət və Azərbaycanın maraqlarının tam şəkildə qorunması və möhkəmlənməsi – bu, bizim qarşımızda duran əsas qlobal istiqamətlərdir. Bütün istiqamətlər üzrə bizim proqramımız var. Hər bir istiqamət üzrə bizim baxışlarımız var, bilirik ki, nə istəyirik, haraya gedirik və təxminən bilirik ki, bunun nəticəsi nə olacaqdır. Nəticədə isə güclü ölkə olacaq, güclü Azərbaycan olacaq və Azərbaycan xalqı bundan sonra da daha yaxşı yaşayacaqdır. Bütün bu məqsədlərimizə çatmaq üçün biz gərək səmərəli işləyək”.

**“İqtisadiyyat”**

> ***Uğurlarımızın kökündə dövlətimizin milli maraqlara cavab verən iqtisadi siyasəti, xalqla iqtidar birliyi, sabitliyə, inkişafa, vətəndaş həmrəyliyinə xidmət edən dövlət siyasəti dayanır.***
>
> ***Ziyad SƏMƏDZADƏ***



# Azərbaycanın bugünkü inkişafının kökündə dövlətin müstəqil siyasəti, böyük tərəqqini təmin edən inkişaf modeli durur




*Yaxın günlərdə Azərbaycan Respublikasının Prezidenti yanında Nazirlər Kabinetinin doqquz aylıq fəaliyyəti ilə bağlı geniş müşavirə keçirildi və həmin müşavirədə bir sıra vacib məsələlərə toxunuldu. Bununla əlaqədar olaraq oktyabrın 13-də AzTv kanalında yayımlanan "Bizim planet" verilişində Milli Məclisin İqtisadi siyasət, sənaye və saibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə və Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, ATƏT-in Parlament Assambleyasının vitse-prezidenti Azay Quliyevlə birgə fikir mübadiləsi aparılmışdır. Verilişdə müzakirə olunan məsələləri oxucularımızın diqqətinə çatdırırıq.*

**Aparıcı (Rufiz Qonaqov):** Məlum olduğu kimi, həftə ərzində mühüm hadisələr baş verib - Azərbaycan Respublikasının Prezidenti yanında Nazirlər Kabinetinin doqquz aylıq fəaliyyəti ilə bağlı geniş müşavirə keçirilib və həmin müşavirədə Azərbaycan Prezidenti cənab İlham Əliyev bir çox vacib məsələlərə toxunub, geniş nitq söyləyib. Eyni zamanda, biz bilirik ki, oktyabr ayının 15-i Azərbaycan Prezidenti cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin 15 illiyi tamam olur və 15 il ərzində, sözsüz ki, ölkəmizin cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə keçdiyi yol, beynəlxalq miqyasda qazandığı uğurlar, ölkə iqtisadiyyatında əldə etdiyi nailiyyətlər və əlbəttə ki, Azərbaycanın dünyada artan nüfuzu bu gün göz önündədir və biz bu məsələlər ətrafında müzakirələr aparacağıq.

İlkin olaraq, Azay müəllim, istərdik ki, Azərbaycanın hazırda dünyadakı yeri, rolu və ümumiyyətlə, ölkə qarşısındakı əsas məqsəd və hədəflərlə bağlı danışasınız.

**Azay Quliyev:** Əlbəttə ki, Azərbaycanın bugünkü beynəlxalq nüfuzu və əldə etdiyi uğurlar təqdirəlayiqdir və cənab prezident Nazirlər Kabinetinin sonuncu iclasında çox haqlı olaraq qeyd etdi ki, Azərbaycan çox nadir ölkələrdəndir ki, onun fəaliyyəti ilə, verdiyi sözlə əməli bir-birinin üzərinə düşür. Mən hesab edirəm ki, Azərbaycanın bu gün beynəlxalq aləmdə artan nüfuzunun əsas səbəblərindən biri bundan ibarətdir. Azərbaycan artıq neçə illərdir öz fəaliyyəti, dövlət başçısının həyata keçirdiyi siyasətlə etibarlı və güvənilə si tərəfdaş imicini qazanıb. Bilirsiniz ki, bu, heç də hər ölkəyə nəsib olan bir hal deyildir.

Digər tərəfdən, Azərbaycan bu gün sistemli, ardıcıl və fasiləsiz siyasət həyata keçirir. Bilirsiniz ki, Azərbaycanın daxili siyasəti ilə xarici siyasəti çox harmonik şəkildə icra olunur.

Azərbaycan o ölkələrdəndir ki, onun sözü ilə, mövqeyi ilə razılaşırlar və cənab prezidentin də qeyd etdiyi kimi, son doqquz ayda 15 xarici ölkə başçısı, ya hökumət başçısı qismində Azərbaycana səfər edilib və Azərbaycanın dövlət başçısı cənab prezident də 12 belə xarici səfər reallaşdırıbdır. Bu, ondan xəbər verir ki, Azərbaycanın xarici siyasəti çox dinamik bir mərhələdədir və özünün inkişaf dövrünü yaşayır. Bu səfərlərin qısa təhlilini versək, görərik ki, Azərbaycana gələn dövlət başçıları dünyanın ən müxtəlif regionlarını təmsil edirlər. Azərbaycan, sözün əsl mənasında, özünün xarici siyasətində həm çevikliyi təmin edə bilibdir, eyni zamanda, məhsuldarlıq əmsalını da kifayət qədər artırıbdır.

Mən bu səfərlərdən təkcə ikisinə toxunmaq istəyirəm. Cənab prezidentin son bir neçə ay ərzində qəbul etdiyi dövlət başçıları sırasında Rusiya Prezidenti cənab Putin və Almaniya kansleri xanım Angela Merkellə görüşlərinə. Bilirsiniz ki, onlar müxtəlif qütbləri təmsil etsələr də, Azərbaycana özlərinin yanaşması ilə yeni dinamizm və impuls verdilər. Azərbaycan bu gün bölgədə elə bir siyasət aparır ki, həmin siyasət birinci növbədə, xarıcı tərəfdaşların maraqlarına toxunmur, onlara problem yaratmır, eyni zamanda, öz milli marağını qoruyub saxlayır. Amma, mənim fikrimcə, bu, Azərbaycanın milli maraqlarını özündə ehtiva edən çox dəyərli, çox düzgün, dəqiq və strateji hədəflərə çatmaq üçün bizə əlavə imkanlar verən siyasətdir. Bu gün bölgədə Azərbaycanın razılığı və yaxud da iştirakı olmadan hər hansı regional layihə həyata keçirilmir. Biz ona nail oluruq ki, Azərbaycanın bu gün əsas məsələsi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində bizi dəstəkləyənlərin, müdafiə edənlərin sayı artır. Məsələn, təkcə bir neçə gün bundan öncə Almaniya Bundestaqının fraksiya üzvlərindən biri hökumətə müraciət etmişdir ki, Almaniya hökuməti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibətini açıqlasın. Çox sevindirici haldır ki, Almaniya hökuməti birmənalı şəkildə qeyd etdi ki, Dağlıq Qarabağ və ətrafında olan yeddi rayon işğal altındadır, bu ərazilər Azərbaycanın əraziləridir və "Dağlıq Qarabağ" adlı hər hansı bir qurum tanınmır. Bunu Almaniya dövlətinin hökumət təmsilçisi deyir. Bu ondan xəbər verir ki, ən çətin məsələlərdə belə Azərbaycan kifayət qədər uğurlu siyasət həyata keçirir, Azərbaycan beynəlxalq ictimaiyyətin dəstəyini qazanır.

**Aparıcı:** Biz bilirik ki, ümummilli lider Heydər Əliyev 1993-cü ildə Ali Sovetin sədri, daha sonra Azərbaycan Prezidenti seçilərkən ölkə çox ağır bir vəziyyətdə idi və on il ərzində Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan çox böyük uğurlar əldə etdi. Bu gün də həmin siyasət İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son on beş il ərzində ölkəmizin iqtisadi qüdrəti əhəmiyyətli dərəcədə artmışdır. Əlbəttə ki, ölkəmizin bu uğurları qürurvericidir. İstərdim bu barədə, Ziyad müəllim, fikirlərinizi açıqlayasınız.

**Ziyad Səmədzadə:** Ulu öndər Heydər Əliyev 1993-cü ildə prezident seçkilərindən sonra andiçmə mərasimində qeyd etmişdi ki, mən söz verirəm ki, Azərbaycanı bu ağır vəziyyətdən qurtarmaq üçün var qüvvəmlə çalışacağam.

2003-cü ildə isə İlham Əliyev ölkə prezidenti seçildikdən sonra bildirmişdi ki, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti də uğurla davam etdirəcəyəm, çünki bu siyasət Azərbaycanı ağır vəziyyətdən çıxarıb. Heydər Əliyev ağır vəziyyətdə olan Azərbaycanı xilas etdi, müstəqil Azərbaycan dövlətini qurdu, Azərbaycanın inkişaf modelinin prinsipial istiqamətlərini müəyyən etdi, inkişaf strategiyasını o dövrlərin reallıqlarına uyğun olaraq hazırladı və onun həyata keçirilməsinə nail oldu, gələcək hədəfləri müəyyən etdi.

On beş il ərzində Azərbaycanın uğurlarını dünyanın heç bir müstəqil ölkəsi əldə etməyib. Son on beş il ərzində Azərbaycanın iqtisadiyyatı 3,2 dəfə artmışdır. Dünyada çox nadir ölkələr var ki, belə bir yüksək sürətlə inkişaf etsinlər. Bunun əsasını, heç şübhəsiz ki, düşünülmüş, ilk növbədə ölkənin milli maraqlarına cavab verən iqtisadi siyasət təşkil edir. On beş il ərzində Azərbaycan dünyanın ən aparıcı layihələrini həyata keçirən bir ölkəyə çevrildi. Heydər Əliyev "Əsrin müqaviləsi"ni bağlamaqla dünya neft siyasətində Azərbaycanın rolunu müəyyənləşdirdi, çox ciddi təzyiqlərə baxmayaraq, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin təməlini qoydu, dünyanın aparıcı şirkətləri ilə neft-qaz müqavilələri bağlanıldı. Son 15 ildə ölkənin milli maraqlarına cavab verən iqtisadi siyasətin bir çox vacib istiqamətləri - regional inkişaf, qeyri-neft sektorunun inkişafı, məşğulluq, yoxsulluğun azaldılması, ölkənin maliyyə resurslarının artırılması ilə bağlı irimiqyaslı proqramlar həyata keçirildi.

Bu gün Azərbaycanın 45 milyard dollar valyuta ehtiyatları var. Ölkənin 1993-1995-ci illərdə, eləcə də 1990-cı illərin sonlarında valyuta ehtiyatları, demək olar ki, yox dərəcəsində idi. Azərbaycan valyuta ehtiyatlarının həcminə görə dünyanın ən böyük ölkələri ilə bir sırada durur. Valyuta ehtiyatları bizə həm özümüzü, həm də gələcək nəsilləri qlobal risklərdən qorumaq üçün lazımdır. Dövlətimizin uğurlarının kökündə müstəqil iqtisadi siyasətimiz durur.

Azərbaycan iqtisadiyyatına 230 milyard dollar investisiya qoyulmuşdur. Amma 90-cı illərin ortalarında bu rəqəm heç yarım milyard da deyildi. Heydər Əliyev şəxsiyyəti, onun lider kimi fəaliyyəti, düzgün milli maraqlara cavab verən siyasəti Qərbin şirkətlərini Azərbaycana gətirdi. Azərbaycan bu gün dünyada iri infrastruktur layihələrini həyata keçirən ölkələrdən biri kimi tanınır və çıxışlarının birində İlham Əliyev demişdir ki, bəzi maliyyə təşkilatları, beynəlxalq qurumlar bildirirdilər ki, siz bu qədər infrastruktur layihələri həyata keçirirsiniz, bu, düzgün yanaşma deyildir. Cənab prezident bu kimi fikirlərlə razılaşmır və bəyan edir ki, əgər biz bu infrastruktur layihələrini həyata keçirməsəydik, daxili tələbatı stimullaşdırmasaydıq, ölkənin energetikasını gücləndirməsəydik, əhalinin su ilə təminatını yaxşılaşdırmasaydıq, min kilometrlərlə yollar çəkməsəydik, Azərbaycan bu uğurlara nail ola bilməzdi. Bu gün Azərbaycanı bir ölkə kimi nüfuzlu edən başlıca amillərdən biri də odur ki, dünya əhəmiyyətli layihələr həyata keçirir. Məsələn, "Şahdəniz", "Qədim İpək yolunun bərpası" layihələri dünyanın ən iri layihələrindəndir və s.

2009-cu ildə Azərbaycan Konstitusiyasına edilən dəyişiklik nə üçün idi? Çünki müəyyən edilsin ki, biz hansı dövləti qururuq, hansı dövlətdə yaşayırıq. Biz sosialyönümlü bazar iqtisadiyyatı qururuq, bazar iqtisadiyyatının sərt şərtləri bəzən sosial məsələləri kənara qoyur. Dövlətimizin Konstitusiyasında qeyd edildi ki, Azərbaycan sosialyönümlü bazar iqtisadiyyatı qurur. Bu o deməkdir ki, hər bir layihənin arxasında, hər bir irimiqyaslı tədbirin həyata keçirilməsində sosial məsələlər ön plana çəkilməlidir... Yekun olaraq birmənalı şəkildə onu deyə bilərəm ki, Azərbaycan son on beş il ərzində böyük inkişaf yolu keçmişdir. Artıq bizim güclü iqtisadi sistemimiz yaranmışdır. Ölkədə yeni iqtisadi sistemin yaranması, qısa zaman kəsiyində keçid dövrünün başa çatması dinamik inkişaf üçün güclü əsaslar yaratmışdır. Azad bazar münasibətləri, dövlətin iqtisadiyyatın idarə edilməsində iştirakı, ilk növbədə milli maraqların ön plana çəkilməsi bizim uğurlarımızı təmin edən ən başlıca amillərdir. Təbii ki, amil xalqla iqtidar birliyidir, cəmiyyətdə taleyüklü problemlər barədə birmənalı konsensus əldə edilmişdir. Belə konsensus olan dövlətə xarici təzyiqlər də bir şey edə bilməz. Çünki xalq dövlətə inanır, dövlətin siyasəti xalqın probemlərinin həllinə, ölkəmizin iqtisadi, siyasi gücünün artmasına yönəlmişdir. Ona görə də bu son 15 il ərzində keçilən yolu mən birmənalı şəkildə Azərbaycan tarixində ən şanlı, ən güclü iqtisadi inkişaf dövrü kimi qiymətləndirirəm.

**Aparıcı:** Çox sağ olun, Ziyad müəllim, ətraflı təhlilinizə görə. Siz 1991-ci il 18 oktyabrda müstəqilliyin elan olunması ilə bağlı proseslərdə iştirak etmisiniz. Bütün bunlar sizin gözünüzün önündə olub və bugünkü Azərbaycanın inkişaf tempi, dünyadakı yeri və rolu barədə siz çox dəyərli fikirlər səsləndirdiniz. Cənab prezidentin reytinqi, həqiqətən də, yüksək olaraq qalır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı öz prezidenti ilə həmişə həmrəy olub və bu gün Azərbaycanın uğurlarını şərtləndirən əsas məsələlərdən də biri elə, qeyd olunduğu kimi, xalq-iqtidar birliyidir. Siz uzun illərdir Azərbaycanı müxtəlif beynəlxalq toplantılarda, eyni zamanda, beynəlxalq təşkilatlarda təmsil edirsiniz. Azərbaycan bu gün çox yüksək sürətlə inkişaf edən ölkədir. Amma ölkəmizə qarşı ikili standartlar hələ də davam edir. Bəzi beynəlxalq qurumlar müxtəlif vaxtlarda ölkəmizdə ayrı-seçkilik yaratmaq istədilər, lakin xalq-iqtidar birliyi və prezidentlə xalqın həmrəyliyi nəticəsində bunlar mümkün olmadı. Mən istərdim bu məsələlərə öz münasibətinizi bildirəsiniz.

**Azay Quliyev:** Bizim hörmətli akademikimiz Ziyad müəllim çox maraqlı məqamlara toxundu. Azərbaycanın son 15 ildə iqtisadi baxımdan keçdiyi yola, rəqəmlərə nəzər yetirdi. Düşünün ki, Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, yəni 320 faiz artıbdır. Bunun arxasında çox böyük zəhmət, həddindən artıq dəqiq və düzgün düşünülmüş siyasət, xalq-iqtidar birliyi və cənab prezidentin formalaşdırdığı çox məşhur bir tezis, - "Mən hər bir azərbaycanlının prezidenti olacağam", - var. Bu, sadəcə olaraq söz, adi bir bəyanat deyildi, bu, cənab prezidentin rəhbərliyi dövründə həyata keçirdiyi siyasətin ana prinsipidir və təsadüfi deyil ki, cənab prezident dəfələrlə çıxışında qeyd edib: "Mənim həyata keçirdiyim siyasətin əsasında Azərbaycan vətəndaşı dayanır". Azərbaycan vətəndaşının sosial rifahı, təhlükəsizliyi, yaxşı yaşaması, dünyada Azərbaycanı layiqincə təmsil etmək iqtidarında və imkanında olması dövlət başçısının, cənab prezidentin son 15 ildə həyata keçirdiyi siyasətin əsasını və cövhərini təşkil edir. Bilirsiniz ki, bu gün bölgədə, ümumiyyətlə, dünyada hansı proseslər gedir, hansı təlatümlər, hansı çaxnaşmalar yaşanır və bu təlatümlərdən, bu siyası burulğanlardan dövləti sağ-salamat çıxarmaq və kifayət qədər ciddi milli dividendlər qazanmaq çox nadir dövlət başçısına nəsib olan bir haldır. Hesab edirəm ki, 2018-ci il Azərbaycanın xarici siyasətində zirvə ilidir, ölkəmizin əldə etdiyi uğurların pik nöqtəsidir. Artıq dünya dövlətləri, Avropa Birliyi Azərbaycana çox böyük dəyər verir və Azərbaycanın milli maraqlarını qəbul edirlər, onunla hesablaşırlar. Azərbaycanın bu gün xarici siyasətinə mane olanlar, təzyiq edənlər də var. Amma bu təzyiqlər artıq azalır. Bilirsiniz niyə? Ona görə yox ki, onlar təzyiq etmək istəmirlər, ona görə ki, onlar artıq bu təzyiqin faydasız olduğunun fərqinə varırlar. Onlar anlayırlar ki, Azərbaycan o dövlət deyil ki, onu diktə ilə idarə edə biləsən, adi bir siyasi təxribat törətməklə hakimiyyəti sarsıdasan, dövlət strukturlarını hansısa bir formada zədələyə biləsən. Azərbaycanda stabil dövlət, güclü siyasi iradə, kifayət qədər oturuşmuş və Azərbaycanın milli maraqlarını müdafiə edən siyasi komanda var və bu, cənab prezidentin yaratdığı bir strukturdur, dövlət qurumudur.

Biz öz işimizlə bağlı tez-tez xarici ölkələrə gedirik. Mən hər il Azərbaycanın artan nüfuzunun şahidi oluram. Bu, nəyin hesabına olur? Bu, cənab prezidentin təşəbbüsü ilə beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsi, Azərbaycanın ciddi beynəlxalq layihələrə imza atması ilə bağlıdır. Hamımız bilirik ki, yüz illər boyu erməni lobbisi Azərbaycan haqqında vəhşi bir obraz yaratmağa çalışmış, Azərbaycan haqqında olmazın yalanlar demişlər. Amma artıq Azərbaycanı tanıyırlar, hörmət edirlər və bu gün Azərbaycanın əldə etdiyi uğurların əsasında duran bir amil var - Azərbaycan dövlətinin güclü olması. Bu gün xarici ölkəyə gedəndə bizə öz adımıza, yaxud da şəxsi fəaliyyətimizə görə yanaşmırlar. Azərbaycanı təmsil etdiyimizə görə bizə qiymət verirlər. Bu gün biz hansısa quruma seçiliriksə, hər hansı sənədimiz qəbul olunursa, əmin olun ki, bunun arxasında Azərbaycan dövlətinin gücü, Azərbaycan dövlətinin hörməti və nüfuzu dayanır. Son 15 ili, heç şübhəsiz ki, Azərbaycan tarixinin parlaq və şərəfli səhifəsi kimi qiymətləndirmək lazımdır. Mən bu baxımdan hörmətli Ziyad müəllimin fikri ilə tam razıyam və bu 15 ildə elə fundamental əsaslar yaradıldı, ulu öndərin qoyduğu siyasət yeni müstəvidə, yeni çalarlar və yanaşma ilə elə bir formada icra olundu ki, artıq Azərbaycan, doğrudan da, özünü rahat hiss edə bilir. Azərbaycana böyük inam, etimad var. Əgər inam olmasaydı, heç bir dövlət Azərbaycana investisiya qoymazdı. Azərbaycanın ən böyük uğurlarından biri də odur ki, onun çox stabil, davamlı və proqnozlaşdırılan siyasəti var və bu, bizə həm daxildə, həm də xaricdə kifayət qədər üstünlük verir. Biz bundan sonrakı perspektivdə əldə etdiyimiz uğurlara söykənərək və həmin uğurlardan çıxış edərək, qarşımızda duran bütün hədəflərə çatacağıq. Cənab prezident Nazirlər Kabinetinin iclasında qeyd etdi ki, Azərbaycanın bu gün qarşısında duran elə bir ciddi problem yoxdur. Bir məsələmiz var, o da Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasıdır. Bu istiqamətdə də inanıram ki, Azərbaycan öz ədalətli və milli maraqlarına uyğun olan həll variantına nail olacaqdır.

**Aparıcı:** Ziyad müəllim, bu illər ərzində ölkəmizdə bir çox iqtisadi, eyni zamanda, humanitar forumlar keçirilib. Azərbaycan bir çox iri, beynəlxalq səviyyəli məsələlərə ev sahibliyi edib və Azərbaycanın bu gün böyük təcrübəsi var. Mən istərdim ki, bu məsələyə də öz münasibətinizi bildirəsiniz.

**Ziyad Səmədzadə:** Azay müəllim Azərbaycanın uğurlarının siyasi əsasları, xarici siyasətimizin uğurlarının prinsipial istiqamətləri barədə çox maraqlı fikirlər söylədi. Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi məsələsinə gələndə, Beynəlxalq Valyuta Fondu və ermənipərəst qüvvələr bu layihənin əleyhinə çıxdılar. Beynəlxalq Valyuta Fondu bəyan etdi ki, biz bu layihəni maliyyələşdirməyəcəyik. Beynəlxalq Valyuta Fondu böyük təşkilatdır və onun sərt oyun qaydaları bir çox ölkələrə heç də xoşbəxtlik gətirməyib. Amma təsir qüvvəsi var. Cənab prezident bu təzyiqlərə baxmayaraq, bütün çətinlikləri, ağır-

lığı öz üzərinə götürdü və bu məsələlərin həllinə nail oldu. Beləliklə, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildi. Bu isə təkcə tranzit yüklərinin daşınması üçün deyildi. Bu nəqliyyat dəhlizi Azərbaycanın iqtisadi-siyasi müstəqilliyi, onun beynəlxalq aləmdə nüfuzunun artması üçün lazım idi.

1998-ci ildə Heydər Əliyev Bakıda Böyük İpək yolu sammitini keçirəndə Avropa Birliyi ölkələri, dünyanın ən nəhəng ölkələrinin nümayəndələri çıxış etdilər və bildirdilər ki, belə bir yolun açılması SSRİ-nin dağılmasından sonra yeni respublikaların müstəqilliklərinin qorunması üçün ən güclü amildir. Ölkələr o vaxt müstəqil olur ki, onlar müstəqil siyasət yeridir və onun nəticələrindən bəhrələnirlər. Azərbaycana çoxlu təzyiqlər olub ki, Ermənistan da Azərbaycanın həyata keçirdiyi transmilli layihələrdə iştirak etsin. 1998-ci ildə ölkələr Bakı sammitində bəyannaməni imzalayarkən, Heydər Əliyev bu sənədi o şərtlə imzalayır ki, işğalçı Ermənistan bu layihələrdə iştirak etməyəcək, yəni Bakıdan keçən yüklər Ermənistana getməyəcək, ya da Ermənistandan bu yana gəlməyəcək. Həmin konfransda Ermənistanın Baş naziri çıxış edir və deyir ki, Qumru-Qars dəmir yolu açılsın. Lakin açılmadı, çünki Heydər Əliyev şərt qoymuşdu.

Daha bir faktı qeyd edim. Çin, Amerika Birləşmiş Ştatları, Rusiya "Şahdəniz" yatağı ilə əlaqədar olaraq, Prezident İlham Əliyevə təbrik göndərmişdilər. O təbriklərin mahiyyəti çox böyük idi. Rusiyanın da, ABŞ-ın da, Çinin də cənab Prezident İlham Əliyevə üznvanladığı təbrik Azərbaycanın gücünü göstərirdi. Ona görə Azərbaycanın bu uğurlarının kökündə müstəqil və düşünülmüş siyasət dayanır. Azərbaycan dövlətinin düşünülmüş siyasəti olmasaydı, dünyanı heyran edən o transmilli layihələri imzalamaq mümkün olmayacaqdı. Bu kimi təzyiqlər hər an ola bilər. Ona görə hamımız müstəqilliyimizin keşiyində durmalıyıq, ona xələl gətirən bütün əngəllərin aradan qaldırılması üçün var qüvvəmizlə çalışmalıyıq.

Azərbaycan nadir ölkələrdən biridir ki, öz paytaxtı Bakıda, həmçinin regionlarda çox irimiqyaslı layihələr həyata keçirir. Mən "Əsrin müqaviləsi"ndən sonra 25 il ardıcıl keçirilən layihələri, beynəlxalq neft-qaz konfranslarının materiallarını nəzərdən keçirmişəm. Azərbaycan 172 il bundan əvvəl neft diyarı olub, XX əsrin əvvəllərində dünya neftinin 50 faizini verib, yerin təkindən 2 milyarddan da çox neft hasil edib, amma müstəqilliyə qədər biz bir dənə də belə sərgi keçirməmişdik. Amma indi ildə bir dəfə dünyanın neft-qaz ölkələrinin aparıcı şirkətləri Bakıya yığışırlar, aktual məsələləri müzakirə edir, yanacaq kompleksinin uğurlarını nümayiş etdirirlər.

"Qədim İpək yolu", "Şimal-Cənub", "Bakı-Dəniz Limanı", "Ələt Xüsusi İqtisadi Zonası" layihələri - bunlar hamısı Azərbaycanın keyfiyyətli inkişafının möhkəm dayaqlarıdır. Bu transmilli layihələr Azərbaycanın iqtisadi potensialını artıracaq.

2000-ci illərin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı çətin vəziyyətdə idi. 2001-ci ildə Azərbaycanda yoxsulluq 49 faiz idi, bu gün isə 5 faizdir. 2001-ci ildə, XX əsrin əvvəllərində bizim müasir yollarımız yox idi. Heydər Əliyev çox çətinliklə aqrar islahatları başa çatdırmışdı. Amma indi Azərbaycan kəndinin siması, onun strukturu dəyişir, məşğulluq, investisiya, ixrac potensialı və əhalinin gəlirləri artır.

İnkişaf etmiş ölkələrdə də problemlər var, amma bu problemləri dövlət başçısı görür, onun həlli ilə bağlı hökumətə konkret tapşırıqlar verir.

Azərbaycan prezidentinin fəaliyyətində əsas yeri xalqın maraqları tutur. Cənab prezidentin tədbirdəki çıxışı, strateji iqtisadi proqramlar, eləcə də ekologiya, Bakı şəhərinin abadlaşdırılması, tikintidə olan pozuntular, tullantılardan istifadə - bunların hamısı xalqın həyat səviyyəsinin yaxşılaşmasına xidmət edir. Prezident xalqına müraciət edir və deyir ki, siz bu məsələlərdə daha qətiyyətli olmalısınız, nöqsanlar, pozuntular barədə məni məlumatlandırmalısınız.

1993-cü ildə Azərbaycanda adambaşına ərzaq malları istehlakı iki-üç dəfə aşağı düşmüşdü. 60%-dən yuxarı yoxsulluq var idi. Bu gün isə vəziyyət tamamilə başqadır - qaçqınlar üçün düşərgələr salınıb, çoxlu məktəblər tikilib, yollar salınıb, xəstəxanalar açılıb. Bütün bunlar Qarabağ probleminin olduğu bir şəraitdə dövlətin həyata keçirdiyi tədbirlərdir. İslam ölkələrinin əksəriyyəti arzu edirlər ki, Azərbaycan kimi olsunlar, onlar nicat yolunu Azərbaycanda görürlər. Bir daha deyirəm ki, Azərbaycanın iqtisadi, siyasi gücü imkan verir ki, burada irimiqyaslı iqtisadi, sosial, dünyəvi əhəmiyyət kəsb edən layihələr, forumlar həyata keçirilsin. Artıq neçə illərdir ki, Azərbaycanın inkişaf modeli formalaşmışdır, bu inkişaf modelinin yaradıcısı Heydər Əliyevdir. Bu modelin yeni çağırışlarını nəzərə almaqla reallaşması ölkəmizə, xalqımıza gələcəkdə də böyük uğurlar gətirəcək.




**Aparıcı:** Çox vacib məsələlərə toxundunuz. Həqiqətən də, ictimai, siyasi sabitlik və eyni zamanda, iqtisadi dayanıqlılıq və xalq-iqtidar birliyi Azərbaycan vətəndaşı ilə dövlətinin həmrəyliyi uğurlarımızı şərtləndirir. Azərbaycan bu gün Qoşulmama Hərəkatının fəal üzvlərindən biridir və yeri gəlmişkən, növbəti ildə Azərbaycan böyük bir qurum olan bu hərəkata sədrlik edəcək. NATO Zirvə görüşünün yekunlarında Azərbaycanın ərazi bütövlüyü ilə bağlı bəyannamənin qəbulu, Avropa ittifaqının Azərbaycanla əlaqələri, ümumiyyətlə, Azərbaycanın bu gün öz qonşuları ilə ikitərəfli, üçtərəfli, dördtərəfli formatda əlaqələrinin yüksək səviyyədə inkişafına öz münasibətinizi bildirərdiniz.

Azay Quliyev: Xarici siyasətimizin uğuru ondadır ki, Azərbaycan geosiyasi şərtlərin diktə etdiyi reallıqlardan çıxış edərək, öz maraqlarını qoruya bilir. Bu, çox çətin məsələdir. Azərbaycan müxtəlif təşkilatlarla eyni məsafə saxlamaqla, doğru və dəqiq siyasət yeritməklə öz maraqlarını təmin edir. Cənab prezidentin Brüsselə səfəri oldu və orada çox gözəl, vacib bir sənəd imzalandı. Bu sənəd bizə imkan verəcək ki, tərəfdaşlıq haqqında böyük saziş imzalansın. Tərəfdaşlıq haqqında sazişin iki mühüm məqamı var. Birinci, Azərbaycan tam və ciddi şəkildə bir iqtisadi partnyor kimi qəbul olunur və Azərbaycanın iqtisadi maraqları bu sazişdə öz əksini tam olaraq tapır. Bu gün Avropa İttifaqı ilə Azərbaycan arasında xarici ticarət dövriyyəsi ümumi dövriyyəmizin yarısı qədərdir və Avropa İttifaqı bu gün bizim üçün çox mühüm tərəfdaşdır. Azərbaycan da eynilə Avropa İttifaqı üçün. Bu gün Azərbaycan yeganə dövlətdir ki, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində fəal rol oynayır. Bilirsiniz ki, bir neçə il bundan öncə müxtəlif dairələrin təsiri ilə Azərbaycanın ən vacib məsələsi olan ərazi bütövlüyü, suverenliyi və beynəlxalq aləm tərəfindən tanınması məsələsində Avropa İttifaqının yanaşmasında fərqli çalarlar vardı və bu, bizi qane etmirdi. Cənab prezident çox açıq şəkildə mövqeyini bildirdi ki, belə olan halda biz hər hansı sazişdən söhbət apara bilmərik. Amma bir neçə ay bundan öncə razılaşdırılmış çərçivə sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı prinsipi müdafiə olunub və saxlanıldı. Biz qarşılıqlı maraqlara söykənən əməkdaşlıq edirik. Uzun müddət aparılan erməni təbliğatı və bir çox geosiyası maraqlar Avropa İttifaqını tərəddüddə qoymuşdu. Amma artıq o tərəddüd tam olaraq aradan qalxıbdır. Bu o deməkdir ki, işğalçı ölkə az da olsa, əvvəl özünün imzaladığı, yaxud da əlaqə qurduğu Avropa İttifaqı ilə bu formada əməkdaşlıq çərçivəsində müəyyən siyasi dəstəyə ümid edirdisə, bu ümid tamamilə aradan qalxdı. Bu, birinci məsələ.

İkincisi, Azərbaycan Qoşulmama Hərəkatında çox aktivdir. Qoşulmama Hərəkatının 120 üzvü var. Qoşulmama Hərəkatına gələn il Azərbaycan sədrlik edəcək və 120 dövlət başçısının Azərbaycana toplaşması çox böyük tarixi hadisə olacaq. Cənab prezident doqquz aylıq yekunlara həsr olunmuş iclasda çox gözəl fikir söylədi. Azərbaycan islam dəyərlərinə çox böyük önəm verir və bununla fəxr edir. Azərbaycanda İslam dininə dövlət tərəfindən çox böyük dəstək var və Azərbaycan dövləti ən müxtəlif imkanlardan istifadə edib, inanclı insanlara dəstək verir. Bu gün Azərbaycanda 2250-dən çox məscid fəaliyyət göstərir. Bu gün, cənab prezidentin də qeyd etdiyi kimi, Bakı İslam dünyasının mədəniyyət paytaxtına çevrilib. Eyni zamanda, Azərbaycan İslam dünyası ilə uğurlu əməkdaşlıq həyata keçirdiyi kimi, digər ölkələrlə də çox sıx əməkdaşlıq edir.

Mən burada bir məsələyə də toxunmaq istəyirəm. Bilirsiniz ki, Azərbaycan türkdilli dövlətlərin Əlaqələndirmə Şurasında çox fəal rol oynayır. Azərbaycan prezidentinin həyata keçirdiyi siyasət həm dini, həm də milli baxımdan modern dünyanın qəbul edə biləcəyi forma və üsulları özündə əks etdirdiyinə görə bu uğurlara gətirib çıxarıb. NATO dünyada ən güclü hərbi blokdur. NATO dövlət başçısının, NATO Parlament Assambleyasının qəbul etdiyi qərarlar birbaşa Azərbaycanın milli maraqlarına xidmət edir, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tanıyır. Yaxud da, indi biz Şanxay Əməkdaşlıq Təşkilatı ilə yaxından əməkdaşlıq edirik. Bilirsiniz ki, bizim orada dialoq tərəfdaş statusumuz var və indi üçtərəfli status almaq istəyirik. Şanxay Əməkdaşlıq Təşkilatının üzvlərinin siyahısına baxsaq, orada dünyanın ən hegemon, iqtisadi baxımdan inkişaf etmiş ölkələrini görərik - Çin, Hindistan, Pakistan və s. Onlar bu gün 2 milyard insanı əhatə edən böyük coğrafiyaya sahibdirlər. Bu ölkələr çox böyük tranzit potensialına malikdir və Azərbaycanın bu gün Qədim İpək yolunun bərpası istiqamətində həyata keçirdiyi siyasət, Bakı-Tbilisi-Qars dəmir yolu xətti və digər tranzit şəbəkəsinin inkişafı ilə bağlı həyata keçirilən işlər bu gün bizə imkan verir ki, Şanxay Əməkdaşlıq Təşkilatları ilə üzv olan ölkələrlə potensialdan tam şəkildə istifadə edək. Sevindirici haldır ki, Şanxay Əməkdaşlıq Təşkilatının əsas ideya müəlliflərindən biri olan və dünya iqtisadiyyatının böyük çəkiyə malik dövləti Azərbaycanın bu təşəbbüsünü dəstəkləyir və mən əminəm ki, bu cür beynəlxalq təşkilatlarla bizim əməkdaşlığımız həm iqtisadi, həm siyasi, həm təhlükəsizlik baxımından Azərbaycanın imkanlarını xeyli artırır. Azərbaycan çox güvənli və etibarlı tərəfdaşdır. Azərbaycan özünün siyasi gündəmində olan istənilən məsələni çox asanlıqla həyata keçirə bilir və qarşı tərəfi də buna inandırıb, qəbul etdirə bilir.

Bu, hesab edirəm ki, Azərbaycanın indiki şəraitdə çox böyük uğurudur və cənab prezidentin həyata keçirdiyi siyasətdir. Biz hazırda əldə etdiyimiz uğurlardan maksimum faydalanaraq, daha yeni nailiyyətlərə imza ata biləcəyik.

**Aparıcı:** Təşəkkür edirik, Azay müəllim. Azərbaycanın xarici siyasətinin uğurlarından biri də bu yaxınlarda Xəzərin statusunun müəyyən olunması məsələsi idi. İstərdim hörmətli akademikimiz Ziyad müəllim də bu vacib məsələlərlə bağlı öz fikirlərini bildirsin.

**Ziyad Səmədzadə:** Azərbaycan iqtisadiyyatının, Azərbaycan dövlətinin uğurları çox möhtəşəmdir. Bu uğurları, heç şübhəsiz, müəyyən edən, təmin edən dövlətin apardığı siyasətdir.

Xəzərin statusuna gəldikdə, bu məsələ SSRİ dağıldıqdan sonra meydana çıxmışdır.

Ölkələr arasında gərginliklər var idi və bu gərginliklərin aradan qaldırılması üçün Heydər Əliyev hələ o vaxtlar çox böyük işlər apardı, bir neçə sammit keçirildi, müəyyən irəliləmələr əldə edildi. Cənab Prezident İlham Əliyev Xəzəryanı ölkələrin Xəzərin statusu ilə bağlı məsələlərdə ümumi rəyinin əldə olunması üçün mühüm işlər gördü, Xəzəryanı dövlətlərin başçıları ilə görüşlər keçirdi. Xəzərin statusunda razılığın əldə olunması Azərbaycanın müstəqilliyi və təhlükəsizliyi üçün çox vacib amildir. Eyni zamanda, Xəzərin statusu barədə razılığın əldə edilməsi Azərbaycanın iqtisadi inkişaf potensialını genişləndirəcək. Son 15 ildə Azərbaycanın dövlət siyasətində əldə edilən uğurlara Konvensiyanın qəbul edilməsini də əlavə etmək lazımdır.

Çünki beş ölkənin fundamental bir məsələdə razılığa gəlməsi Xəzərin təbii resurslarından səmərəli istifadə olunması, Xəzərin ekoloji cəhətdən qorunması, Xəzərətrafı ölkələr arasında əməkdaşlığın genişlənməsi deməkdir. Çünki hələlik bu bölgə ilə iqtisadi əməkdaşlıq o qədər də böyük rəqəmlərlə ifadə olunmur: 10 faizdən artıq deyildir. Ona görə də ölkəmizin Qazaxıstan, Türkmənistan, Rusiya və İranla iqtisadi münasibətlərinin genişlənməsi üçün çox böyük imkanlar açılır. Ümumiyyətlə, 2018-ci il Azərbaycan xalqının tarixinə müstəqilliyin 100 illiyi kimi daxil olmuşdur.

Xalq Cümhuriyyətinin 100 illiyi böyük təmtəraqla qeyd edildi, keçilən yola ətraflı nəzər salındı. Bu gün Azərbaycan dünyada sözü, böyük nüfuzu olan, dinamik inkişaf edən, öz xalqının taleyüklü problemlərini uğurla həll edən bir dövlətə çevrilmişdir. Bütün bunların kökündə, yenə də deyirəm, Azərbaycan dövlətinin apardığı uğurlu siyasət, ulu öndər Heydər Əliyev siyasətinə sadiqlik, müstəqil Azərbaycan dövlətinin müstəqil siyasəti, böyük tərəqqini təmin edən inkişaf modeli durur.



# Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsal 6 faizədək artıb



Cari ilin yanvar-sentyabr aylarında sənayenin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 1 milyard 422,8 milyon manat dəyərində məhsul istehsal olunub və xidmətlər göstərilib.
Dövlət Statistika Komitəsindən bildirilib ki, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 5,9 faizlik artım müşahidə edilib. Sənaye məhsulunun 4 faizi məhz bu sektorda istehsal olunub. Üç rübdə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi isə 2,2 faiz artaraq 233,6 milyon manat olub. Sənaye məhsulunun 0,6 faizi həmin sektorda istehsal edilib.
Sentyabr ayında sənaye məhsullarının istehsalçı qiymətləri elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələri üzrə dəyişməyib. Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 1,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində, 2,6 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda işləyib.

## Üç rübdə külək elektrik stansiyalarında 32 milyon kilovat/saatadək elektrik enerjisi istehsal edilib



Bu ilin 9 ayında Azərbaycandakı külək elektrik stansiyalarında (KES) 31,9 milyon kilovat/saat elektrik enerjisi istehsal olunub. Dövlət Statistika Komitəsindən bildirilib ki, 3 rübdə ölkədəki günəş elektrik stansiyalarında (GES) isə 31,7 milyon kilovat/saat elektrik enerjisi istehsal edilib.

# Bu il ölkədə 126,4 min ton metanol istehsal olunub



Cari ilin 9 ayında Azərbaycanda 46,9 min ton propilen (ondan 40,3 min ton əmtəəlik), 83,2 min ton polietilen, 85,6 min ton etilen, 7 milyon 284,9 min ton izopropil spirti və 126,4 min ton metanol (metil spirti) istehsal edilib.
Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu il oktyabrın 1-nə 4,1 min ton propilen, 1,6 min ton polietilen, 1 milyon 715,8 min ton izopropil spirti və 5,5 min ton metanol hazır məhsul ehtiyatı kimi qalıb.
Üç rübdə əsas kimya məhsullarından izopropil spirti istehsalı 22,1 faiz və metanol istehsalı 42,9 faiz azalıb. Propilen istehsalı 38 faiz, etilen istehsalı isə 28,3 faiz artıb.

# Statistika Komitəsi: Azərbaycanda benzin və dizelin istehsalı artıb



Cari ilin 3 rübündə Azərbaycanda 1 milyon 517,9 min ton dizel yanacağı, 906,3 min ton avtomobil benzini, 169,1 min ton neft-kimya sənayesində istifadə üçün benzin, 469,1 min ton ağ neft, 61,2 min ton yanacaq mazutu, 108,5 min ton sürtkü yağları, 219,2 min ton neft bitumu və 195,9 min ton neft koksu istehsal edilib.
Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 9 ayda neft məhsullarının istehsalı sahəsində istehsalın ümumi dəyəri 2 milyard 408,3 milyon manat olmaqla əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 9,5 faiz artıb.
Neft məhsullarından yanacaq mazutunun istehsalı 76,3 faiz azalıb. Avtomobil benzininin, ağ neftin, dizel yanacağının, sürtkü yağlarının, neft bitumunun və neft koksunun istehsalı isə artıb.

# Avropa ölkələrinə 7,5 milyard dollarlıq məhsul ixrac edilib



2018-ci ilin yanvar-sentyabr aylarında Azərbaycandan Avropa İttifaqı (Aİ) ölkələrinə 7 milyard 601 milyon 331 min ABŞ dolları dəyərində məhsul ixrac edilib.
Dövlət Gömrük Komitəsindən bildirilib ki, bu, ötən ilin müvafiq dövrünə nisbətən 3 milyard 873 milyon 975 min dollar çoxdur. Aİ ölkələrindən Azərbaycana idxal olunan məhsulun dəyəri isə 1 milyard 703 milyon 647 min dollardır.

# Novak 1973-cü ilin neft böhranının təkrarlanmasını az ehtimallı hesab edir



İran ətrafında baş verən hadisələr 1973-cü il dünya neft böhranının təkrarlanmasına səbəb olmayacaq. «RİA Novosti» agentliyinin verdiyi məlumata əsasən, bu barədə Rusiyanın energetika naziri Aleksandr Novak bildirmişdir.
OPEK üzvü olan Ərəb ölkələri 45 il əvvəl Ərəb-İsrail müharibəsində İsraili dəstəkləyən ABŞ və digər ölkələrə neft ixracına embarqo qoymuşdular. Neftin qiyməti kəskin yüksəldi. Məhdudiyyətlər 1974-cü ildə ləğv edildi. ABŞ strateji neft ehtiyatları yaratdı.
"Mənə elə gəlir ki, ehtimal çox azdır, hazırda vəziyyət tamam başqadır", — hazırda belə böhran vəziyyətinin yarana biləcəyi haqqında suala cavabında Novak bildirib. Nazir qeyd edib ki, dünyada sutkada 100 mln. barrel neft çıxarılır. Bundan maksimum sutkalıq 2,7 mln. barrel İranın payına düşür. "Tələb və təklifin tarazlaşdırılması mexanizmləri mövcuddur. Ola bilsin ki, bu, müəyyən vaxt tələb edir, lakin hazırda vəziyyət daha sabitdir", — Novak hesab edir.
Oktyabrın əvvəlində Brent markalı neftin bir barrelə görə qiyməti 2014-cü ilin noyabrından sonra ilk dəfə olaraq 85 dolları ötmüşdür. Hazırda Brent barrelinə görə 86 dollar baha satılır. Mütəxəssislərin fikrincə, qiymət artımının əsas səbəbi noyabrda ABŞ-ın tətbiq edəcəyi sanksiyalar nəticəsində İrandan neft ixracının azalması gözlənilərdir. Treyderlər hesab edirlər ki, yaxın aylarda neft qiymətləri 100 dollaradək yüksələcək.
Rusiya Prezidenti Vladimir Putin hesab edir ki, Amerika lideri Donald Tramp neftin qiymətinə görə məsuliyyət daşıyır. Baş nazir Dmitriy Medvedyev bildirdi ki, bahalaşan neft Rusiya iqtisadiyyatı üçün "holland sindromu" təhlükəsi yaradır (iqtisadiyyatın bir sahəsində bum hesabına milli valyutanın məzənnəsinin möhkəmlənməsi). "Başlıcası, artan neft qiymətləri şəraitində bu xəstəliyin qayıdışına yol verməməkdir", — Medvedyev hesab edir.

**Hazırladı: Mansur**

# Neft Fondu indiyədək Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinə 590 milyon manatadək vəsait ayırıb

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) cari ildə 14,3 ton qızıl alıb.
Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq Neft Fondundan məlumat verilib.
"2017-ci ilin sonuna Dövlət Neft Fondunun investisiya portfelində qızılın ümumi miqdarı 30 ton 174,9 kiloqram (970 145,5 troya unsiyası) olub. Cari ildə əlavə olaraq 14 ton 343,6 kiloqram (461 156,7 troya unsiyası) qızılın alınması ilə ARDNF-nin investisiya portfelində qızılın ümumi miqdarı bu il sentyabrın 30-u tarixinə 44 ton 518,5 kiloqram (1 431 302,31 troya unsiyası) və yaxud 1 milyard 694 milyon ABŞ dolları təşkil edib", - deyə ARDNF-dən bildirilib.
Qeyd edək ki, qızıl Neft Fondunun investisiya portfelinin 4,3 faizini təşkil edir.



# SOCAR indiyədək "Neft Daşları" yatağından çıxarılan neft-kondensat və qazın həcmini açıqlayıb



Bu vaxtadək "Neft Daşları" yatağından 175 milyon tonadək neft-kondensat, 79 milyon kubmetrə yaxın təbii qaz çıxarılıb.
Bu barədə SOCAR məlumat yayıb. Bildirilir ki, indiyədək "Neft Daşları" yatağı üzrə qazılan 1916 quyudan 175 milyon tona yaxın neft-kondensat, 79 milyon kubmetrədək qaz hasil edilib.

# Cari ildə Bakı-Tbilisi-Ərzurum kəməri ilə 5,8 milyard kubmetrədək təbii qaz ötürülüb

Bu ilin yanvar-sentyabr aylarında Azərbaycandakı magistral qaz kəmərləri ilə 16 milyard 806,1 milyon kubmetr təbii qaz nəql edilib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,7 faiz artım müşahidə olunub.
Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 3 rübdə qaz nəqlinin 34,4 faizi Bakı-Tbilisi-Ərzurum (Cənubi Qafqaz Boru Kəməri - CQBK) boru kəməri vasitəsilə həyata keçirilib. Hesabat dövründə bu kəmərlə 5 milyard 785,6 milyon kubmetr təbii qaz göndərilib.



"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

# AXC dövründə ölkədə nəqliyyatın inkişafı



AXC-nin yaradılması ərəfəsində ölkədə quru və su yolları, xüsusən də dəmir yolu və boru kəmərləri nəqliyyat əlaqələrində mühüm rol oynayırdı. Bu dövrdə dəmir yollarının ümumi uzunluğu 954,2 km idi. Həmin dövrdə iqtisadi və siyasi əhəmiyyətli şose və torpaq yolların sıx şəbəkəsi də mövcud idi. Bu yollarla qəza mərkəzlərindən dəmir yolu stansiyalarına və əksinə, yük, sərnişin daşımaları üçün dördtəkərli furqon tipli arabalardan və avtomobillərdən istifadə olunmasına başlanmışdı.

Bəhs olunan dövrdə Azərbaycanın əsas su yolları Bakıdan Xəzər vasitəsilə Salyan, Lənkəran, Ənzəli, Port-Petrovsk (Mahaçqala), Həştərxan istiqamətində idi. Xəzər ticarət donanmasında 17 böyük buxar gəmisi vardi. Dənizdən Yevlax stansiyasına kimi 554,7 km-lik məsafədə Kür çayından da gəmi vasitəsilə gediş-gəliş vardı. Kür çayı ilə Salyanla Yevlax arasında 10 gəmi işləyirdi.

Birinci Dünya müharibəsi (1914-18) ərəfəsində Azərbaycanda istifadədə olan neft kəmərinin ümumi uzunluğu 834,7 km-ə çatırdı.

Müharibə dövründə, xüsusən də 1917-18 illərdə xalq təsərrüfatında baş verən böhran və dağıntılar nəqliyyata ağır zərbə vurdu. Hökumət başçısı Fətəli xan Xoyski Azərbaycan Parlamentinin 1918-il il 26 dekabr tarixli iclasındakı çıxışında bildirmişdi ki, yaxın keçmişdə ölkənin dəmir yollarına güclü zərbələr dəymişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən xalq təsərrüfatının bu vacib sahəsinin bərpasına və inkişafına xüsusi diqqət yetirməyə başladı. Bu məqsədlə Yollar Nazirliyi yaradıldı. Bu nazirlik ilk vaxtlar dəmir yolu nəqliyyatına rəhbərlik edirdi. Azərbaycan Parlamentinin 1919-cu il 17 mart tarixli qərarı ilə bütün şose və torpaq yolları, onların üzərindəki süni qurğular, yol inşası və bərpası işləri də Yollar Nazirliyinin sərəncamına verildi. Həmin il aprelin 2-də verilən qərarla ölkədəki avtomobil emalatxanaları və anbarları da Yollar Nazirliyinin ixtiyarına keçdi.

1918-ci il oktyabrın 30-da Bakı ticarət limanı idarəsinin fəaliyyəti bərpa edildi. Ticarət gəmiləri ilə Bakı ilə Port-Petrovsk (Mahaçqala), Salyan, Lənkəran limanları arasında sərnişin və yük daşınması təşkil edildi. Hökumətin ciddi səyləri nəticəsində 1919-cu ildə Bakı-Batumi neft kəməri də bərpa edilib istifadəyə verildi. 1919-cu ilin avqust ayında ingilis qoşunları Azərbaycandan çıxdıqdan sonra Bakı limanı və ticarət donanması da Cümhuriyyətin sərəncamına keçdi, ölkənin ticarət gəmiləri Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı altında üzməyə başladılar.

Azərbaycan hökuməti şose yollarının bərpası üçün 1919-cu il fevralın 17-də Yollar Nazirliyinin sərəncamına 1 milyon manat kredit ayırdı. Həmin il aprelin 24-də isə bilavasitə Yevlax-Şəki şose yolunun təmiri və seldən qorunması üçün bənd tikilməsinə 210 min manat vəsait verildi. Hökumət nəqliyyat vasitələrinin təmiri və normal istismarı məsələlərini daim diqqət mərkəzində saxlayırdı. 1919-cu il aprelin 28-də Bakıda avtomobillərin ilkin təmiri və avtomobil zavodunun saxlanması üçün 175 min manat vəsait ayrıldı. Həmçinin, Yollar Nazirliyinə tapşırıldı ki, avtomobil zavodunun gəliri və xərcləri haqqında əsaslı məruzə hazırlasın.

Azərbaycan Xalq Cümhuriyyəti olduqca çətin və mürəkkəb şəraitdə həyata keçirdiyi tədbirlərlə ölkədə nəqliyyatın işini, əsasən, qaydaya sala bildi. Dəmir yolu və su nəqliyyatı, neft kəmərinin istismarı dövlət xəzinəsinə gəlir gətirməyə başladı.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFI BÖLGƏ İQTİSADİYYATININ ŞAXƏLƏNDİRİLMƏSİNƏ GÜCLÜ TƏKAN VERƏCƏK

Azərbaycanın cənub bölgəsinə – gözəlliklər diyarı olan Masallıya gediş-gəliş xeyli asanlaşıb. Bakını İran sərhədi ilə birləşdirən Şimal-Cənub Nəqliyyat Dəhlizinin xeyli hissəsini təşkil edən Ələt-Astara-İran magistral avtomobil yolu istismara verilib. Rahat, sürətli və müasir standartlara cavab verən belə möhtəşəm layihənin gerçəkləşməsi Azərbaycanın iqtisadi gücünü və qüdrətini bir daha təsdiqləyir. Yaşayış məntəqələrindən yan keçən bu yolda həm məsafə 40 kilometr qısaldılıb, həm də maksimal hərəkət sürəti 120 kilometrə çatdırılıb. Eyni zamanda, tranzit yükdaşımaların həcmi artıb. Yeni avtomobil yolunun ümumi uzunluğu 204 kilometrdir, birinci texniki dərəcəyə aiddir. Asfalt hissəsinin eni 15 metr, hərəkət zolağının sayı 4-dür. Sifarişçisi Azərbaycan Avtomobil yolları Dövlət Agentliyi olan yolun podratçı şirkətləri Azərbaycanın "Evrason-Az.Virt" Birgə Müəssisəsi, Türkiyənin "Kolin İnşaat Sənaye Turizm və Ticarət", "Özgin Yapı-Sənaye və Ticarət", həmçinin digər beynəlxalq nüfuzlu şirkətlərdir.

Yolun bir hissəsinin tikintisi 2016-cı ildə başa çatdırılıb və cənab Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Cari ilin sentyabr ayının 18-də cənab prezident Salyan-Şorsulu-Cəlilabad və Masallı-Lənkəran-Astara hissəsinin açılışını reallaşdırıb. Bununla da Ələt-Astara-İran dövlət sərhədi yeni avtomobil yolunun 150 kilometrlik hissəsi istismara verilib.

Magistral yol boyunca 24 körpü, 66 yeraltı keçid, 25 yol ötürücü və yol qovşağı, 4 tunel, 5 km suaxıdıcı beton küvetlər tikilib, 5 istirahət parkı salınıb, 140 kilometr çiyinlərdə metal mühafizə çəpərləri, suötürücü borular, yol nişanları, göstərici lövhələr quraşdırılıb və yol-cizgi xətləri çəkilib. Eyni zamanda, magistralın digər yollarla kəsişməsində qovşaqlar tikilib, hərəkət zolaqlarının maksimal təhlükəsizliyi təmin olunub. Bu magistral yolun çəkilişi bölgənin iqtisadi inkişafına, sosial tərəqqisinə, beynəlxalq yük dövriyyəsinin dəfələrlə artmasına müsbət təsir göstərəcək, turizmin, azad sahibkarlığın və liberal iqtisadiyyatın çiçəklənməsinə böyük təkan verəcəkdir.

Masallının sosial-iqtisadi yüksəlişinə və tərəqqisinə xidmət edən digər layihələr də reallaşdırılıb. Sentyabr ayında bu rayonda cənab Prezident İlham Əliyevin xeyir-duası ilə Masallı Sənaye Məhəlləsinin əsaslı şəkildə yenidən qurulan Şatiroba-Hişkəndərə-Miyankü-Kubin-Birinci Səmidxan-Xıllıcallı-Eminli-Məmmədxanlı avtomobil yolunun açılışı olub. Bu yerdə bir məsələni də xüsusi vurğulamaq lazımdır ki, son 15 ildə dövlət başçısı Masallıya 10 dəfə səfər etmiş və hər bir səfər rayonun tarixində, taleyində, inkişafında və tərəqqisində silinməz izlər buraxmışdır.

Masallı rayonunun iqtisadi inkişafında və sosial tərəqqisində regionların sosial-iqtisadi inkişafına dair qəbul edilən və uğurla reallaşdırılan üç mərhələ Dövlət Proqramları da xüsusi rol oynamışdır. Proqramlar çərçivəsində görülən işlər, həyata keçirilən tədbirlər nəticəsində 14 ildə Masallı rayonu elə dəyişib, gözəlləşib və müasirləşib ki, bunları sözlə ifadə etmək olmaz, gərək gəlib yerində görəsən.

Dövlət Proqramları çərçivəsində və digər mənbələr hesabına görülən tədbirlər nəticəsində rayonun sənaye məhsullarının istehsal həcmi 11,2 dəfə, əsas kapitala yönəldilən vəsait 45 dəfə, o cümlədən tikinti-quraşdırma işlərinə yönəldilən investisiya 45,5 dəfə artıb. Olimpiya İdman Kompleksi, "Asan Həyat" Kompleksi, Bayraq Meydanı və Dövlət Rəmzləri Muzeyi, Tarix-Diyarşünaslıq Muzeyi, Gənclər Mərkəzi, Uşaq İncəsənət Məktəbi, Regional Boks və Taikvando Mərkəzləri, əlil və şəhid ailələri üçün 76 mənzilli 3 yaşayış binası inşa edilib. Bundan başqa, Rayon Mərkəzi Xəstəxanası, Mədəniyyət Mərkəzi əsaslı təmir olunub, 47 ümumi təhsil müəssisəsi istifadəyə verilib. Masallı şəhərinin içməli su təchizatı sistemi yenidən qurulub, 110 kilovoltluq "Tüklə" elektrik yarımstansiyası istifadəyə verilib, onlarla istehsal və emal müəssisəsi açılıb...

Sözsüz ki, yaradılan mükəmməl infrastruktur rayonun iqtisadi inkişafına, xüsusilə də özəl bölmənin inkişafına təsirsiz ötüşməyib.

Bölgədə açılan və uğurla fəaliyyət göstərən müalicə ocaqları, istirahət mərkəzləri və həmin məkanlara gələn turistlərin və qonaqların sayında özünü göstərən artım dinamikası deyilənlərə əyani sübutdur.

Son illər Masallıda hər yanda, hər sahədə inkişaf və irəliləyiş nəzərə çarpır. Təkcə bir faktı diqqətə çatdırmaq yerinə düşərdi ki, Dövlət Proqramlarının icrası nəticəsində rayonda 28 min yeni iş yeri açılıb, yol-nəqliyyat infrastrukturu yaxşılaşdırılıb, genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb. Bütün bunlar sonucda insanların sosial durumuna, həyat səviyyəsinin yüksəlməsinə gətirib çıxarıb.

Masallı Sənaye Məhəlləsinin yaradılması ölkəmizdə qeyri-neft sektorunun, o cümlədən sənayenin müxtəlif sahələrinin inkişafı istiqamətində yeni-yeni layihələrin gerçəkləşməsi üçün gözəl imkanlar açır. İndi sahibkarlıq subyektləri yerli xammal və ehtiyatlardan səmərəli istifadə etməklə öz istehsal və biznes fəaliyyətlərini qurmaq imkanı əldə ediblər.

Bu Sənaye Məhəlləsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il iyunun 12-də imzaladığı sərəncamla gerçəkləşib. Ümumi sahəsi 10 hektar olan kompleksdə dövlət vəsaiti hesabına zəruri infrastruktur, həmçinin 2,5 meqavat gücündə elektrik enerjisi təchizatı, gücü saatda 25 kubmetr olan sutəmizləyici qurğu, su və kanalizasiya sistemi, təbii qaz təchizatı yaradılıb, yüksək standartlara cavab verən 3 istehsal modulu, ikimərtəbəli inzibati bina, texniki və köməkçi binalar tikilib, genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb. İlkin mərhələdə dam örtükləri və aksesuarlar, mebel, dəmir məmulatları, döşək, taxta emalı və məmulatları istehsalı, həmçinin taxta evlərin hazırlanması işləri ilə məşğul olan sahibkarlıq subyektləri tərəfindən 10 layihə hazırlanıb təqdim olunub. Artıq reallaşdırılan bu layihələr çərçivəsində 200 nəfərlik yeni iş yerləri yaradılıb. Təkcə "Mikayıloğlu" brendi ilə buraxılacaq uşaq və mətbəx istehsalı sahəsinin investisiya məbləği 100 min manatdır. Burada ayda 100 ədəd mətbəx və uşaq mebeli istehsal olunacaq, illik dövriyyə 180 min manatı ötüb keçəcək. Bu tipli istehsal və emal sahələrinin yaradılması dövlətimizin strateji məqsədlərinə xidmət etməklə kiçik və orta biznesin inkişafına güclü təkan verəcək.

Sənaye Məhəlləsində İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin "Kiçik və Orta Biznesin Dostu" Mərkəzi, habelə "Azərxalça" MMC tərəfindən yaradılmış Təlim-Tədris Mərkəzi fəaliyyət göstərir. Sənaye Məhəlləsinin inzibati binasında sahibkarlara sığorta, bank, mühasibatlıq və hüquqi xidmətlər göstərilir.

Masallı həm də aqrar rayondur. Burada sitrus meyvələri, tərəvəz, bostan bitkiləri, çəltik və s. əkilib becərilir. Xüsusilə, son iki-üç ildə bu sahədə nəzərəçarpacaq irəliləyiş özünü göstərib. Elə götürək "Masallı Nemətləri" MMC-ni. Burada yüksək standartlara uyğun çəltik istehsal edilir. Bölgə iqtisadiyyatının yüksəldilməsinə, ərzaq bolluğunun yaradılmasına xidmət edən belə layihələrin icra olunması hər bir təsərrüfat adamının ürəyincədir. Çəltik istehsalının stimullaşdırılması, bu yolda çəltik istehsalına marağın artırılması mühüm vəzifə kimi qarşıda durur. Çəltikçilik Masallı rayonu üçün ənənəvi sahədir. Odur ki, bu sahədə dönüş yaratmaq üçün o qədər ciddi maarifləndirməyə ehtiyac qalmır.

Yeni yaradılmış müəssisənin ümumi sahəsi 1 hektar, tikinti sahəsi isə 600 kvadratmetrdir. İnşaat işləri 2018-ci ilin sentyabr ayında tam başa çatdırılıb. İstehsal sahəsinin aylıq emal gücü 300 ton, düyüqurutma gücü isə 900 tondur. Respublika prezidenti Masallıya səfəri çərçivəsində çəltik emalı müəssisəsində yaradılmış şəraitlə yaxından tanış olmuş, öz tapşırıq və tövsiyələrini vermişdir.

Sahibkarlığın inkişafına təkan verən amillərdən biri də yol infrastrukturudur. Rayonun 32 min əhalisinin yaşadığı 22 kəndi birləşdirən yol layihəsinin icrası üçün dövlət büdcəsindən 7,5 milyon manat vəsait xərclənilib. Dördüncü texniki dərəcəli bu yolun uzunluğu 24,7 kilometr, hərəkət hissəsinin eni 6 metrdir. Bu yol rayon mərkəzi ilə nəqliyyat əlaqəsini yaxşılaşdıracaq, eyni zamanda, kənd təsərrüfatının və emal sənayesinin inkişafında əvəzsiz rol oynayacaqdır.

Rayonda tikinti-quruculuq, abadlıq işləri davam etdirilir. Hazırda Park-Bulvar Kompleksi tikilir, yaxın vaxtlarda bu kompleks sakinlərin ixtiyarına veriləcək və gözəl istirahət məkanına çevriləcək.



Digər rayonlarda olduğu kimi, Masallıya da dövlət qayğısı və dəstəyi davam etdirilir. Bu ilin sentyabr ayının 18-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Masallı rayonunun sosial-iqtisadi inkişafı ilə bağlı iki sərəncam imzalayıb.

Birinci sərəncamla rayonda yeni infrastruktur layihələrinin və abadlıq-quruculuq işlərinin icrasına prezidentin ehtiyat fondundan Masallı Rayon İcra Hakimiyyətinə 3 milyon manat vəsait ayrılıb. Digər sərəncamla isə Masallıda 3230 hektar əkin sahəsinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq məqsədi ilə 37 kiçik sututarında zəruri bərpa işlərinin aparılması üçün Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ilkin olaraq 1 milyon manat vəsait ayrılıb.

İnnovasiyalar əsrində yaşayırıq. Hər şey, sanki hər gün, hər saat dəyişir. Dünyada baş verən texniki yeniliklərin arxasınca çatmaq lazımdır. Bunun üçün texniki yeniliklərdən baş çıxaran yeni nəsil sahibkarlar zümrəsi yetişdirmək zəruri vəzifə kimi qarşıda durur. İqtisadiyyatın şaxələndirilməsi prosesinin sürətləndirilməsi strateji hədəflər sırasında ön mövqedə dayanır. Bu işlərə Masallıda da başlanılıb. Yaxın illərdə biz bunun müsbət nəticələrini görəcəyik.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# PAŞA Bank 2018-ci ilin ilk 6 ayının maliyyə nəticələrini açıqladı




Azərbaycanın aparıcı korporativ bankı olan PAŞA Bank 30 iyun 2018-ci il tarixinə bitən 6 ay üzrə özünün və törəmə banklarının (PASHA Bank Georgia və PASHA Yatırım Bankası A.Ş.) maliyyə nəticələrini açıqlayıb. Tədbirdə əsas spiker qismində Bankın İdarə Heyətinin üzvü, Baş Maliyyə İnzibatçısı Bəhruz Nağıyev çıxış edib.

Bankın xalis mənfəəti 30 iyun 2018-ci il tarixinə bitən 6 ay üzrə 35,394 min AZN olmuşdur ki, bu məbləğ keçən ilin ilk 6 ayı üçün 50,324 min AZN təşkil etmişdir. 30 iyun 2018-ci il tarixinə faiz gəlirləri 109,031 min AZN səviyyəsinə çatmışdır. 30 iyun 2017-ci il tarixinə bu məbləğ 132,453 min AZN təşkil etmişdir.

Qeyri-faiz gəlirləri 30 iyun 2018-ci il tarixinə 15,586 min AZN olmuşdur ki, bu da ümumi əməliyyat gəlirlərində 16% pay deməkdir. Bankın ümumi əməliyyat gəlirləri keçən illə müqayisədə 10% azalaraq 97,489 min AZN səviyyəsinə çatmışdır. Qeyri-faiz gəlirlərinin əsas hissəsini dilinq əməliyyatlarından gəlir təşkil edir – 7,952 min AZN və ya 51%. Bu o deməkdir ki, dilinqdən gəlirlərin ümumi əməliyyat gəlirlərindəki payı 8%-dir. Xalis haqq və komissiya gəlirləri 7,390 min AZN təşkil edir ki, bu da qeyri-faiz gəlirlərinin 47%-i, ümumi əməliyyat gəlirlərinin isə 8%-i deməkdir.

30 iyun 2018-ci il tarixində bitən 6 ay üzrə Bankın ümumi əməliyyat xərcləri keçən ilin eyni dövrü ilə müqayisədə 2% artaraq 43,606 min AZN təşkil etmişdir. 30 iyun 2018-ci il tarixində bitən 6 ay üçün xərcin gəlirə nisbəti əmsalı 45%-dək artmışdır. 2017-ci ilin eyni dövrü üçün həmin məbləğ müvafiq olaraq 40% təşkil etmişdir. PAŞA Bank hazırda xərclərin hesablanması metodologiyasını tətbiq edir. Bu təşəbbüs məhsul və seqmentlərin təhlili üçün daha dəqiq məlumat əldə etməyə, həmçinin qiymətlərin formalaşması mexanizminə öz müsbət töhfəsini verəcək.

Aktivlər portfelinin şaxələndirilməsi ilə bağlı qəbul etdiyi strateji qərar nəticəsində Bank müştərilərinə təklif etdiyi xidmətlərin düzgün balansını saxlamağa nail olmuşdur. 30 iyun 2018-ci il tarixinə PAŞA Bankın məcmu aktivləri 4,469,931 min AZN təşkil etmişdir ki, bu da 2017-ci ilin müvafiq tarixində qeydə alınmış 3,614,019 min AZN ilə müqayisədə 24% artım deməkdir.

30 iyun 2018-ci il tarixinə Bankın aktivləri aşağıdakılardan ibarətdir:
- Pul vəsaitləri və onların ekvivalentləri – 36,1%
- Müştərilərə verilmiş kreditlər – 34,4%
- İnvestisiya qiymətli kağızları – 18,5%
- Kredit təşkilatlarından alınacaq məbləğlər – 6,5%
- Digər aktivlər – 4,5%

Bankın məcmu kreditləri 30 iyun 2018-ci il tarixinə 1,566,498 min AZN məbləğinə çatmışdır. Bu 2017-ci ilin sonu ilə müqayisədə 11% artım deməkdir.

30 iyun 2018-ci il tarixinə kredit portfelinin effketiv ehtiyat dərəcəsi 3,9% olmuşdur. Bu faiz dərəcəsi 31 dekabr 2017-ci il tarixinə olan 4,5% göstərici ilə müqayisədə stabil qalmışdır.

PAŞA Bank illər ərzində formalaşdırdığı münasibətlərə və xidmətlərinin keyfiyyətinə əsaslanan müştəri bazasını artırmaqda davam edir. 30 iyun 2018-ci il tarixinə müştəri hesabları ilin sonu ilə müqayisədə 15% artaraq 3,320,558 min AZN səviyyəsinə çatmışdır. Nəticədə, məcmu kreditlərin müştəri hesablarına nisbəti əmsalı 2017-ci ilin sonunda müşahidə olunan 49% göstərici ilə müqayisədə azalaraq 47% olmuşdur.

Bankın 30 iyun 2018-ci il tarixinə məcmu kapitalının adekvatlıq əmsalı 11% təşkil etmişdir (31 dekabr 2017-ci il tarixində 15%). 30 iyun 2018-ci il tarixinə likvidlik əmsalı 96% olmuşdur ki, 2017-ci ilin sonunda bu göstərici 99% idi.

PAŞA Bank 542,821 min AZN təşkil edən məcmu kapitalına görə ən iri kommersiya bankı mövqeyini qoruyub saxlamışdır. Eyni zamanda, bank 2018-ci ilin ilk 6 ayı ərzində 61,414 min AZN dividend ödəmişdir.

İddiali bir bank olaraq PAŞA Bank son illərdə yeni zirvələri dəf edərək, regional Banka çevrilmişdir. Yaxın vaxtlarda bankın yeni Quba filialının açılışı da gözlənilir.







# Ölkədə 57761,9 milyon manatlıq ÜDM istehsal edilib



2018-ci ilin yanvar-sentyabr aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 57761,9 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz çox ümumi daxili məhsul istehsal edilib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, bu dövrdə iqtisadiyyatın qeyri-neft sektorunda istehsal olunan əlavə dəyər 1,0 faiz, neft sektorunda isə 0,5 faiz artıb. Əlavə dəyərin 6,3 faizi tikinti, 5,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində istehsal edilib.

Məhsula və idxala xalis vergilər ÜDM-in 7,9 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 5889,2 manata bərabər olub.

# Neftin qiyməti bahalaşır



Dünya birjalarında neftin qiyməti bahalaşıb. Londonun ICE ("Inter-Continental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barrelinin qiyməti 0,08 dollar artaraq 81,49 dollar, Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barrelinin qiyməti isə 0,05 dollar bahalaşaraq 71,97 dollar olub.

# Azərbaycan neftinin bir barreli 81,69 dollara satılır



Azərbaycan neftinin qiyməti ucuzlaşır. "Azeri Light" markalı neftin bir barrelinin qiyməti 0,12 dollar ucuzlaşaraq 81,69 dollar təşkil edib.

Qeyd edək ki, Azərbaycan neftinin bir barrelinin qiyməti 2001-ci ilin dekabrında minimuma enərək 19,15 dollar, 2008-ci ilin iyulunda isə maksimuma çataraq 149,66 dollar olub.

# Üç rübdə Bakı-Tbilisi-Ceyhan kəməri ilə 25,1 milyon ton neft göndərilib

Bu ilin 9 ayında Azərbaycandakı magistral neft kəmərləri ilə 30 milyon 881,7 min ton neft nəql olunub. Nəqletmənin 81,5 faizi Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri (BTC) ilə həyata keçirilib. Yanvar-sentyabr ayları ərzində bu kəmər vasitəsilə 25 milyon 153,8 min ton neft ötürülüb. Doqquz ayda BTC ilə 4 milyon 785,8 min ton tranzit nefti də nəql edilib.

# В среднесрочной перспективе грузоперевозки по Баку-Тбилиси-Карс будут доведены до 3 млн. тонн



Еженедельно посредством железной дороги Баку-Тбилиси-Карс (БТК) осуществляются три грузовых рейса между Турцией, Азербайджаном и Казахстаном.

Об этом сказал Trend в эксклюзивном интервью министр транспорта и инфраструктуры Турции Мехмет Джахит Турхан. По словам министра, в настоящее время Турция посредством БТК экспортирует строительные материалы, чистящие средства, продовольствие и аграрную продукцию в такие страны, как Азербайджан, Грузию, Узбекистан, Туркменистан, Казахстан, Кыргызстан и Россию, а импортирует, в свою очередь, в основном зерно, железо и цинк.

Министр также отметил, что с начала эксплуатации железной дороги Баку-Тбилиси-Карс было перевезено 100 тысяч тонн грузов в 102 контейнерных поездах.

"Посредством железной дороги БТК в долгосрочной перспективе мы планируем ежегодно перевозить 17 миллионов тонн грузов, а в среднесрочной перспективе выйти на объем в три миллиона тонн грузов" - сказал Турхан.

Министр также отметил, что с введением в строй железной дороги БТК завершилось строительство одного из важных отрезков "Среднего транспортного коридора" в Турции.

Турхан отметил, что коридор БТК стал частью работ по возрождению исторического "Шелкового пути", являющегося не только транспортно-экономическим, но и политическим, культурным и социальным проектом.

"Шелковый путь", по словам министра, является самым протяженным транспортно-торговым коридором в мире. Общая протяженность "Шелкового пути" составляет 18 тысяч километров, и он охватывает более 60 стран."С началом эксплуатации железной дороги БТК Турция смогла создать транспортный коридор между Европой и Азией. В то же время с завершением этого проекта Национальная железнодорожная компания Турции (TCDD Taşımacılık AŞ), входящая в состав нашего министерство, с 15 февраля 2018 года стала членом Международной ассоциации "Транскаспийский международный транспортный маршрут", - сказал министр.

Отметим, что 30 октября 2017 года в Бакинском международном морском торговом порту состоялась торжественная церемония по случаю открытия железной дороги Баку-Тбилиси-Карс. Общая протяженность БТК составляет 826 километров.

Железная дорога БТК построена на основе азербайджано-грузино-турецкого межгосударственного соглашения.

# 68,73 Процента инвестиционного портфеля нефтяного фонда приходится на развитые страны



В классификации инвестиционного портфеля Государственного нефтяного фонда Азербайджанской Республики (ГНФАР) по географическим регионам на 30 сентября текущего года 38,43 процента приходится на Европу, 27,14 процента – Азию-Тихий океан, 23,62 процента – Северную Америку, 2,74 процента – Австралию-Новую Зеландию, 0,8 процента – Ближний Восток, 0,06 процента – Южную Америку, а 7,21 процента – на международные финансовые структуры.

Как сообщает АЗЕРТАДЖ, об этом сообщается в отчете ГНФАР об итогах инвестиционной деятельности за 9 месяцев 2018 года. В отчетный период в разделе инвестиционного портфеля Государственного нефтяного фонда по уровню развития стран 68,73 процента составляют развитые страны, 24,06 процента – развивающиеся страны и 7,21 процента – международные финансовые организации.

# Беларусь зарегистрирована в сети оказания помощи МАГАТЭ



Министерство по чрезвычайным ситуациям Беларуси зарегистрировало национальные ресурсы по оказанию международной помощи в Сети реагирования и оказания помощи (RANET) Международного агентства по атомной энергии (МАГАТЭ). Об этом в среду сообщает БЕЛТА со ссылкой на МЧС Беларуси.

Сеть RANET образована в 2005 году в рамках стратегии МАГАТЭ по поддержке практической реализации Конвенции о помощи в случае ядерной или радиационной аварийной ситуации. Участницей конвенции является и Беларусь. Свои ресурсы в сети на данный момент зарегистрировало 31 государство, включая Германию, Китай, Россию, США, Украину, Францию и Японию.

"Для регистрации в RANET Беларусь определила национальные ресурсы, где работают квалифицированные специалисты, есть оборудование и материалы, которые могут быть предоставлены для оказания помощи другому государству. В том числе это структуры МЧС Беларуси - Республиканский центр управления и реагирования на чрезвычайные ситуации, Республиканский отряд специального назначения, Госатомнадзор, Департамент по материальным резервам и Университет гражданской защиты", - рассказали в МЧС.

Основные цели RANET - предоставление международной помощи, согласование механизмов ее оказания и соответствующий обмен информацией в случае ядерных или радиологических аварийных ситуаций. Сеть оказывает международную помощь по просьбе государства, где произошла ЧС.

Пострадавшее государство обращается за помощью в Центр инцидентов и аварийных ситуаций МАГАТЭ. Центр использует RANET для определения национальных ресурсов, соответствующих запросу. После согласовываются финансовые и организационные условия оказания помощи. При получении согласия от руководства стран, которые были определены наиболее оптимальными, национальные ресурсы включаются в объединенную международную команду. Она оказывает помощь на территории пострадавшего государства либо дистанционно консультирует под общей координацией МАГАТЭ.

# В 2017 году Азербайджан инвестировал в экономику Кыргызстана 18,8 миллиона долларов

Азербайджан по итогам 2017 года инвестировал в экономику Кыргызстана 18,8 миллиона долларов.

Как сообщает АЗЕРТАДЖ со ссылкой на Tazabek, об этом сказал заместитель министра экономики Азербайджанской Республики Сахиб Мамедов в ходе заседания Совета сотрудничества тюркоязычных государств.

Он сообщил, что в свою очередь за 2017 год Кыргызстан инвестировал в экономику Азербайджана почти 2 миллиона долларов.

«Между нашими странами хорошо развивается сельскохозяйственное сотрудничество», - сказал он.

«В целях увеличения туристического потенциала между странами необходимо создать совместное предприятие», - считает С.Мамедов.

# Азербайджан предлагает Кыргызстану создать СП в сфере туризма

Азербайджан предлагает Кыргызстану создать совместное предприятие в сфере туризма. С таким предложением, как передает агентство Tazabek, выступил заместитель министра экономики Азербайджана Сахиб Мамедов в ходе 8-ой встречи министров экономики Совета сотрудничества тюркоязычных государств (ССТГ) в Бишкеке.

Говоря о сотрудничестве между странами, замминистра также отметил хороший уровень взаимодействия в агросекторе.

По его словам, по итогам 2017 года Азербайджан инвестировал в экономику Кыргызстана 18,8 миллиона долларов, а Кыргызстан – за год вложил два миллиона долларов в экономику Азербайджана.

Напомним, что в Бишкеке сегодня проходит 8-я встреча министров экономики Совета сотрудничества тюркоязычных государств. В работе данной встречи принимают участие представители Азербайджана, Казахстана, Турции, Венгрии и Секретариата Тюркского совета.

Участники Совета обсуждают перспективы экономических отношений между странами, а также вырабатывают общую позицию по вопросам дальнейшего углубления сотрудничества, которые были рассмотрены в ходе 6-го Саммита глав государств ССТГ третьего сентября 2018 года.

Накануне также состоялось 10-е заседание Рабочей группы по экономическому сотрудничеству с участием экспертов стран-членов ССТГ и Секретариата Тюркского совета.



# Россия лидирует по объему денежных переводов в Грузию



В сентябре 2018 года из России в Грузию перечислили около 37,7 миллиона долларов, что на 7,5 процента меньше по сравнению с сентябрем прошлого года. Об этом говорится в материалах на сайте Национального банка Грузии, передает в среду Sputnik Грузия.

На долю России в сентябре приходится около 29 процентов от общего объема денежных переводов в грузинские коммерческие банки при помощи электронных систем переводов.

В целом денежные переводы в грузинские коммерческие банки при помощи электронных систем в сентябре 2018 года выросли на 5,6 процента и составили более 131,3 миллиона долларов.

Объем денежных переводов в грузинские коммерческие банки при помощи электронных систем в январе-сентябре 2018 года вырос на 16 процентов по сравнению с тем же периодом 2017 года и составил около 1,2 миллиарда долларов.

Из России в Грузию за девять месяцев 2018 года денежных переводов поступило на 1,3 процента больше, чем за отчетный период прошлого года. Общий объем денежных переводов из России в январе-сентябре 2018 года составил более 336,3 миллиона долларов.

Из Грузии в сентябре за границу перевели более 19,2 миллиона долларов, что на 1,2 процента больше, чем за тот же период прошлого года. За девять месяцев 2018 года в целом из Грузии за границу перечислили около 167 миллионов долларов, что на 11 процентов больше по сравнению с январем-сентябрем 2017 года.










# UNEC ABŞ-ın Linkoln Universitetilə ikili diplom proqramına başlayır



Tədrisin keyfiyyətinin artırılması istiqamətində UNEC-də həyata keçirilən islahatlardan biri də nüfuzlu xarici universitetlərdə ikili diplom proqramlarına üstünlük verilməsidir. Artıq UNEC tələbələrinin 4 il təhsil müddəti ərzində UNEC diplomu ilə bərabər, Fransanın Montpellier, London Universiteti-London İqtisadiyyat Məktəbinin, İsveçin UBİS, Litvanın Mikolos Romeyros universitetlərinin də diplomlarını alması reallıqdır.

UNEC bu istiqamətdə yeni uğura imza atıb. Belə ki, bir ildən çox müddətdə aparılan danışıqların nəticəsi olaraq 12 oktyabrda İstanbulda UNEC rektoru professor Ə.Muradov və Linkoln Universitetinin rektoru, professor M.Brodsky tərəfindən ABŞ-ın Linkoln Universiteti ilə UNEC arasında ikili diplom proqramına dair müqavilə imzalanıb. Müqaviləyə əsasən, UNEC tələbələri öz seçimlərinə uyğun olaraq, 1 və ya 2 il ABŞ-da oxumaqla, yaxud ABŞ-dan gələn professorların tədris etdiyi 9-12 fənni Bakıda UNEC-də dinləyib uğurla imtahan verdikdən sonra UNEC diplomu ilə yanaşı, həm də ABŞ Linkoln Universitetinin diplomunu əldə edə biləcəklər. Müqavilənin üstünlüyü həm də ondadır ki, ikili diplom proqramından həm bakalavr, həm də magistrlar bəhrələnə biləcək. Linkoln Universiteti 1919-cu ildə yaradılıb. "San Francisco Business Times" reytinqinə əsasən, University of Californiya, Berkeley/Haas School of Business və Stanford Graduate School of Business-dən sonra "MBA Proqrams in the Greater Bay Area" da ən yaxşı MBA təhsili verən universitetdir. Məlumat üçün bildiririk ki, ümummilli lider Heydər Əliyev Linkoln Universitetinin fəxri doktorudur.

# Ən çox təmassız POS-terminalı olan bank - AtaBank!




16 oktyabr 2018-ci il tarixində Bakı şəhərində yerləşən "Four seasons" otelində "MasterCard" beynəlxalq ödəniş sistemi tərəfindən konfrans keçirilmişdir.

2018-ci ilin nəticələrinə görə, "AtaBank" ASC "Təmassız POS-terminal sayı ən yüksək olan bank" nominasiyasında qalib gələrək, xüsusi Diplomla təltif edilmişdir.

"MasterCard" beynəlxalq ödəniş sisteminin rəsmi nümayəndələri "AtaBank" ASC-nin bu istiqamətdə gələcəkdə daha böyük uğurlara nail olmasını arzu etmişdir.

Nominasiya ilə bağlı "AtaBank" ASC-nin Marketinq və Kommunikasiyalar Departamentinin direktoru Oruc İbrahimov bildirib ki, "Keçən il olduğu kimi, bankımız cari ildə də bu nominasiya üzrə birinciliyi qoruyub saxlamağı bacarmışdır. AtaBank olaraq gələcəkdə də bu istiqamətdə daha böyük uğurlara imza atmağa çalışacağıq. AtaBank əldə etdiyi nailiyyət və uğurlara görə müştərilərinə dərin təşəkkürünü bildirir". 1993-cü ildən fəaliyyət göstərən "AtaBank" ASC 100% yerli kapitala malik, qabaqcıl texnologiyalı universal Azərbaycan bankıdır. Bank Bakıda və ölkənin müxtəlif regionlarında korporativ və fərdi müştərilərə tam xidmətlər spektrini təqdim edir.

# RƏSSAMLA ŞAİRİN BÖYÜK DOSTLUĞU



***Oktyabrın 14-ü qüdrətli fırça ustası, xalq rəssamı Səttar Bəhlulzadənin anım günüdür. Onun ölməz sənətinin vurğunu, sevimli şairimiz Tofiq Bayramın ömür-gün yoldaşı Zərifə xanım Bayramova sənətkar haqqında xatirələrini bizimlə bölüşdü. Onu oxucularımıza təqdim edirik.***

* * *

Mən, Azərbaycan rəssamlığına dünya şöhrəti qazandıran Səttar Bəhlulzadə ilə görkəmli söz xiridarı Tofiq Bayramın dostluğundan söz açmaq istəyirəm. Onların çoxillik dostluğunun kökündə, heç şübhəsiz, bir-birinin sənətinə və şəxsiyyətinə sonsuz hörmət və əlbəttə ki, eyni kənddə boya-başa çatmalarıdayanırdı. Tofiq Bayram həmişə böyük rəssamla dostluğu ilə fəxr edirdi. Səttarın sağlığında da, vəfatından sonra da onun sənətindən və qeyri-adiliyindən danışmaqdan doymazdı. Onların doğum günlərində cəmisi bir gün fərq var idi. Tanrı ötən əsrdə, dekabrın 15-də Əmircan torpağına sonradan hamının sevimlisinə çevriləcək rəssam Səttar Bəhlulzadəni, dekabrın sonrakı günündə isə sənətinin məsuliyyətini öz yaradıcılığında dəfələrlə nümayiş etdirən şair Tofiq Bayramı bəxş etmişdi.

Tofiq Bayramın "Fərqimiz" şeirindən:

On beş dekabrda sən doğulmusan,
Ay ustad, on altı dekabrda mən.
Sən dillər əzbəri rəssam olmusan,
Yazıram-pozuram xırda-xırda mən.
Həyatda fərqimiz bircə gün imiş,
Sənətdə fərqimiz yerlə göy qədər.
Bu şöhrət halalca qiymətin imiş,
Səttar əbədidir, mən gəldi-gedər.

Bizim evin ən əziz qonağı xalqımızın qüdrətli fırça ustası Səttar Bəhlulzadə idi. O, bahar aylarında tez-tez bağımıza gələr, qızılgüllərin kölgəsində saatlarlaoturub etüdlər edərdi. Mən də bir kənardan ona baxmaqdan doymazdım. Səttar bu anlarda bütün dünyanı unudar, fırçanı kətan üstündə gəzdirdikcə dodaqaltı şeir deyərdi. Sonralar bildim ki, bu şeirlər Füzulinindir.

Tofiq Bayramın Səttarla fəxr edə-edə yazdığı bir neçə şeiri isə bu gün poeziya həvəskarlarının dilinin əzbəridir. "Səttar çələngi" adlanan bu "səkkizliklərə" "Xitab", "Şöhrət", "Zirvə", "Bir sinədə üç ürək", "Dahilik", "Cavanlıq", "Qocalıq", "Mənim günahım", "Rənglər, boyalar", "Bahar gözləyir", "Sənətin Məcnunu", "Şairin hədiyyəsi", "Məscid muzey", "Siqaret", "Sən yeriyəndə", "Yamanlığa yaxşılıq","Ağlı korlar","Rəsul Həmzətovun Səttar Bəhlulzadə ilə görüşü", "Ölüm kimdən yapışır", "Ruhun şad olsun", "Fərqimiz" şeirləri daxildir .

Bir dəfə bizi fərdi sərgisinin açılışına dəvət etmişdi. Tofiqlə birgə sərgi salonuna getdik. Orada Tofiqə çıxış üçün söz verildi. Onun hərarətli çıxışı rəssamı çox təsirləndirdi və o, yaxınlaşıb şair dostunu bağrına basdı və salondakı bir əsərə işarə edib dedi ki, bu natürmortu sənə bağışlayıram. Ancaq Tofiq qıyıb o tablonu götürmədi.

Biz Bakının Nərimanov rayonunda yaşayanda, Səttar Bəhlulzadə bizə tez-tez gələrdi. İçəri girən kimi mənə, "Xala nəvəsi, mənə armudu stəkanda bir çay gətir. Yanında ancaq qənd və limon olsun", - deyərdi. Çayı içəndən sonra ona müraciət edərdim ki, yemək hazırlayımmı? Deyərdi ki, hələ ac deyiləm, əgər acsam, onda balaca boşqabda düşbərə verərsən. Özü də sirkəsi yanında, bir dənə də sumaxlı ət qutabı olsa bəsimdir. Ancaq sənətdən o qədər maraqlı söhbətlər edərdi ki, yeməyi də unudardı. Biz də ona qulaq asmaqdan doymazdıq.

Bir dəfə isə şəhərdə maraqlı bir hadisəyə rast gəldik. Biz Tofiqlə "Azərbaycan" kinoteatrından çıxanda, Natavan heykəlinin qarşısında adamların toplandığını gördük. Tofiq elə uzaqdan milis nəfəri ilə mübahisə edənin Səttar olduğunu bildi və biz ora tələsdik. Məlum oldu ki, heykəlin qabağındakı balaca bağdakı qızılgül öz gözəlliyi ilə rəssamı o dərəcədə heyran edib ki, özgə vaxt onların təbii qalmasının tərəfdarı olmasına baxmayaraq, bu dəfə onu kətana köçürmək üçün dərmək istəyib. Rəssamı tanımayan milis də bunun üstündə onu tənbeh etməklə bölməyə aparmaq istəyirmiş. O da, təbii ki, müqavimət göstərirmiş, üstəlik də onu hələ söyübmüş. Bunu eşidən Tofiq üzünü polisə və ətrafdakılara tutub, "Bu belə-belə olmuşlar rüşvət almaqdan vaxt tapmırlar ki, ədəbiyyatla, incəsənətlə maraqlansınlar; öz rəssamını, şairini tanısınlar" sözlərini deyəndən sonra məsələ həll olundu. Milisin hadisə yerini tərk etməkdən başqa çarəsi qalmadı...



**RUHUN ŞAD OLSUN**

Dedi məzarımı kəndimdə qazın,
Yanıma bir fırça qoyun, bir çiçək.
Adicə bir daşa adımı yazın,
Xətrimi istəyən özü gələcək....

Qələm çək hər dərdin, əzabın üstə,
Fırçan intizardan, qoy, azad olsun!
Heykəlin ucalıb məzarın üstə,
Səttar Bəhlulzadə, ruhun şad olsun!

**BİR SİNƏDƏ ÜÇ ÜRƏK**

Bu dilsiz ağaclar necə oxunur,
Necə şeir deyir bu lal qayalar?
Nə gözü yorulur, nə könlüm doyur,
Dil açıb danışır rənglər, boyalar.

Rəssamlıq ilahi vergiydi səndə,
Bəs, necə oxutdun gülü, çiçəyi,
Görünür, üç ürək varmış sinəndə;
Füzuli, Üzeyir, Səttar ürəyi!

Şair ilə rəssamın uzun illər davam edən dostluğu 1974-cü ildə Tanrının hökmü ilə qırıldı.

Rəssam vəsiyyətinə görə Əmircanda anasının yanında, Tofiq də sonradan, son arzusuna görə Səttarın yaxınlığında torpağa tapşırıldı.

Cəmisi 17 ildən sonra onlar yenidən qoşalaşdılar. Hazırda Əmircan qəbiristanlığında rəssama və şairə ehtiramını bildirməyə gələnlər həm də onların böyük dostluğundan söz açırlar.

# Təhsil müəssisələrində Dayanıqlı İnkişaf Məqsədlərinin təbliği




"Azərbaycan İqtisadçılar İttifaqı" İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının qrantı hesabına "Təhsil müəssisələrində Dayanıqlı İnkişaf Məqsədlərinin təbliği istiqamətində tədbirlərin təşkili" adlı layihənin icrasını davam etdirir.

**Təşkilat 10 oktyabr 2018-ci il** tarixində Bakı şəhər 7 saylı məktəbdə tədbir təşkil etmişdir. Tədbirin məqsədi məktəbin şagirdlərini BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri və ölkəmizdə bu istiqamətdə aparılan işlərlə tanış etmək, şagirdlərlə Dayanaqlı İnkişaf Məqsədləri mövzusunda maarifləndirici söhbət aparmaq, diskussiya keçirmək idi. Layihənin eksperti, ADPU-nun dosenti İlham Əhmədov BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini şagirdlərə şərh etdi, ölkəmizdə bu istiqamətdə aparılan konkret işlər barədə danışdı. Tədbirdə qeyd edildi ki, BMT Dayanıqlı İnkişafın 17 əsas məqsədini belə formalaşdırıb: **Məqsəd 1:** Hər yerdə yoxsulluğun bütün formalarına son qoymaq; **Məqsəd 2:** Aclığa son qoymaq, ərzaq təhlükəsizliyinə və daha yaxşı qidalanmaya nail olmaq və dayanıqlı kənd təsərrüfatını təşviq etmək; **Məqsəd 3:** Yaşından asılı olmayaraq hər kəsin sağlam yaşamasını təmin etmək və rifah halını yaxşılaşdırmaq; **Məqsəd 4:** Hər kəs üçün inklüziv və keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsili təşviq etmək; **Məqsəd 5:** Gender bərabərliyinə nail olmaq, bütün qız və qadınları səlahiyyətləndirmək; **Məqsəd 6:** Hamıya suyun və kanalizasiya xidmətlərinin əlçatanlığını təmin etmək; **Məqsəd 7:** Hamının sərfəli, etibarlı, dayanıqlı və müasir enerji mənbələrinə çıxışını təmin etmək; **Məqsəd 8:** İnklüziv və dayanıqlı iqtisadi artımı, hamı üçün məşğulluğu və layiqli əməyi təşviq etmək; **Məqsəd 9:** Möhkəm infrastruktur yaratmaq, inklüziv və dayanıqlı sənayeləşməni təşviq etmək və innovasiyaların inkişafına dəstək vermək; **Məqsəd 10:** Ölkədaxili və ölkələrarası bərabərsizliyi azaltmaq; **Məqsəd 11:** Şəhər və yaşayış məntəqələrinin açıqlığını, təhlükəsizliyini, davamlılığını və ekoloji dayanıqlılığını təmin etmək; **Məqsəd 12:** Dayanıqlı istehlak və istehsal modellərinə keçidi təmin etmək; **Məqsəd 13**: İqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə aparmaq üçün təxirəsalınmaz tədbirlər görmək; **Məqsəd 14:** Okeanları, dənizləri və dəniz ehtiyatlarını qorumaq və onlardan səmərəli istifadə etmək; **Məqsəd 15:** Meşələri dayanıqlı şəkildə idarə etmək, səhralaşmaya qarşı mübarizə aparmaq, torpaqların deqradasiyasına son qoyaraq onları bərpa etmək üçün tədbirlər görmək və bioloji müxtəlifliyin itirilməsinin qarşısını almaq; **Məqsəd 16:** Ədalətli, sülhsevər və açıq cəmiyyətləri təşviq etmək; **Məqsəd 17:** Dayanıqlı inkişaf üçün qlobal əməkdaşlığı canlandırmaq.

Tədbirin sonunda təhsil işçilərinin şagirdlərlə bu mövzuda apardıqları olduğu söhbətlərin əhəmiyyəti qeyd etdi.

* * * *

Layihəyə uyğun olaraq **11 oktyabr 2018-ci il** tarixində Bakı şəhər 7 saylı məktəbdə tədbir təşkil etmişdir. Tədbirin məqsədi məktəbin şagirdlərini BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri və ölkəmizdə bu istiqamətdə aparılan işlərlə tanış etmək, şagirdlərlə Dayanaqlı İnkişaf Məqsədləri mövzusunda maarifləndirici söhbət aparmaq, diskussiya keçirmək idi.

Tədbiri giriş sözü ilə açan layihə eksperti İlham Əhmədov şagirdlərə layihə, layihəyə qrant verən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və layihənin icraçısı - "Azərbaycan İqtisadçılar İttifaqı" İctimai Birliyi barədə qısa məlumat vermiş, daha sonra layihənin mövzusunu şagirdlərin nəzərinə çatdırmışdır.

Layihənin eksperti, ADPU-nun dosenti İlham Əhmədov BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini şagirdlərə şərh etdi, ölkəmizdə bu istiqamətdə aparılan konkret işlər barədə danışdı. Qeyd edildi ki, dünyanın qlobal problemləri bəşəriyyəti daim narahat edir. Bu gün belə problemlər daha da aktuallaşıb. Bu problemlər dünya ictimiyyətinin, o cümlədən BMT və digər beynəlxalq təşkilatların diqqətindədir. Bu problemləri həll etmək üçün müxtəlif inkişaf proqramları hazırlanır və icra edilir. Belə proqramlardan biri də BMT-nin Dayanıqlı İnkişaf proqramıdır. Sonra İ.Əhmədov şagirdlərə proqramın 17 əsas məqsədi barədə məlumat vermişdir. Dünya əhalisinin təxminən yarısı hələ də gündəlik 2 ABŞ dolları məbləğində gəlirlə yaşayır.

Bir çox yerlərdə iş yerinin olması yoxsulluqdan qurtulmaq üçün kifayət etmir. Hədəfə doğru belə yavaş və qeyri-bərabər irəliləyiş bizdən yoxsulluğun aradan qaldırılmasına yönələn iqtisadi və sosial siyasətimizi yenidən gözdən keçirməyi və yenidən formalaşdırmağı tələb edir. Layiqli iş imkanlarının davamlı çatışmazlığı, investisiyaların yetərli səviyyədə olmaması və qeyri-kafi istehlak səviyyəsi demokratik cəmiyyətlərin təməlini təşkil edən sosial həmrəyliyin aşınmasına gətirib çıxarır: tərəqqi hamı üçün ortaq olmalıdır.

Keyfiyyətli iş yerlərinin yaradılması 2015-ci ildən sonra hələ uzun müddət, demək olar ki, bütün ölkələrin iqtisadiyyatı üçün əsas problem olaraq qalacaqdır.

Dayanıqlı iqtisadi artım cəmiyyətlərdən ətraf mühitə zərər verməmklə, insanların keyfiyyətli işlərə sahib olmasına imkan verərək, iqtisadiyyatı stimullaşdıran şərtləri formalaşdırmağı tələb edir. Bunun üçün, həmçinin bütün əmək qabiliyyətli əhali üçün iş imkanları və layiqli iş şəraiti də zəruridir.

- Qlobal işsizlik səviyyəsi 2007-2017-ci illərdə 170 milyondan 270 milyona yüksəlib. Bunun 75 milyonu gənc qadın və kişilərin payına düşür.
- Təxminən 2,2 milyard insan gündəlik 2 ABŞ dolları səviyyəsində müəyyən olunan yoxsulluq həddindən aşağı gəlirlə yaşayır. Yoxsulluq isə yalnız stabil və yaxşı maaşlı işlər hesabına aradan qaldırıla bilər.
- 2016-2030-cu illər arasında əmək bazarına yeni daxil olan işçi qüvvəsi üçün qlobal səviyyədə 470 milyon iş yeri tələb olunur.

Daha sonra respublikada BMT-nin Dayanıqlı İnkişaf proqramının məqsədlərinə doğru atılan addımlar şagirdlərin nəzərinə çatdırıldı.

Tədbirin sonunda təhsil işçilərinin şagirdlərlə bu mövzuda apardıqları olduğu söhbətlərin əhəmiyyəti qeyd edildi.



# Düzgün peşə seçimində hər kəs öz imkanlarını dəqiq müəyyən etməlidir




"PEŞƏYÖNÜMLÜ TƏHSİLİN İNKİŞAFINA YARDIM" İCTİMAİ BİRLİYİ Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının qrantı hesabına "Məktəblilərin İKT yönümlü peşələrə istiqamətlənməsi üçün tədbirlərin keçirilməsi" adlı layihənin icrasını davam etdirir. Təşkilat 11 oktyabr 2018-ci il tarixində Bakı şəhər 7 saylı məktəbdə 8-ci sinif şagirdləri ilə tədbir təşkil etmişdi. Tədbirin məqsədi məktəb şagirdləri ilə peşəyönümü işi aparmaq, məktəbin şagirdlərini İKT yönümlü peşələrə istiqamətləndirmək idi. Layihənin eksperti, ADPU-nun dosenti İlham Əhmədov peşəyönümü işi barədə danışdı. O əvvəlcə şagirdlərdən soruşdu ki, sizlərdən kim öz gələcək peşəsi barədə seçim etmişdir. Bir neçə şagird artıq özlərinə peşə seçdiklərini bildirdilər. Onlar növbə ilə özlərinə hansı peşəni və niyə seçdiyini əsaslandırmağa çalışdılar. Bu məqsədlə indidən hansı tədbirlər gördüklərini bildirdilər. Daha sonra layihə eksperti uşaqlara izah etdi ki, bir sıra peşələr yaxın gələcəkdə əmək bazarından silinəcək, əvəzinə xeyli yeni peşələr yaranacaq. Əmək bazarında gözlənilən bu dəyişiklər texnologiyaların sürətlə inkişaf etməsi ilə əlaqədardır.

Daha sonra tədbirdə layihənin digər eksperti İradə Əliyeva peşə seçiminin hər bir gənc üçün taleyüklü məsələ olduğunu qeyd etdi. Tədbirdə qeyd edildi ki, bu gün dünyada 240 minə yaxın peşə növü vardır. Peşələr isə ümumən 5 növə bölünür: İnsan-təbiət, İnsan-texnika, İnsan-insan, İnsan-işarələr sistemi, İnsan-bədii obraz. Bunlar əsas peşə klasterləridir. Ən əsası insanın özünə uyğun peşə seçimidir. Daha sonra düzgün peşə seçimi aparmaq üçün şagirdlərə tövsiyələr verildi.

Peşə seçimi insanın həyatında verdiyi ən əhəmiyyətli qərarlardan biridir. Peşə təkcə pul qazanmaq, dolanışıq məqsədi ilə seçilmir, bəlkə bunlardan da əhəmiyyətlisi özünü ifadə etmək, özünü doğrultmaq üçün seçilir. Hər birimiz ilk seçimimizi ətrafdakı insanlara baxaraq seçirik. Kimsə hansısa peşədə qabiliyyətli olursa, uğur qazanırsa bizim də ilk ağlımıza gələn o peşəni seçmək olur. Ancaq zaman-zaman qərarlarımızı dəyişdiririk.

Düzgün peşə seçimində hər kəs öz yerini və imkanlarını dəqiq bilməlidir. Aydındır ki, hamıda eyni qabiliyyət, eyni maraq və eyni bacarıq ola bilməz. Amma hər kəsdə hər hansı bir sahəyə müəyyən meyil və maraq vardır. Bu amilləri üzə çıxarmaqda peşəyönümünün rolu böyükdür. Bununla yanaşı, gənclərə peşəyə dair məsləhətlər, əmək bazarında real vəziyyət haqqında məlumatlar vermək lazımdır. Çünki bu gün peşə və ixtisas düzgün seçilməzsə, gələcəkdə həmin peşə və ixtisas üzrə işlə təmin olunmaqda problem yaranır ki, bunun da nəticəsində işsizlik ortaya çıxır. Bu problem dünyanın bütün ölkələrində mövcuddur.

Düşünülmüş şəkildə fərdi yanaşma, hər bir vətəndaşın maraq və meyillərinə, bacarıqlarına uyğun peşə seçmələri son dərəcə əhəmiyyət kəsb edir. Bu vacib işin uğurla həyata keçirilməsi üçün peşə seçiminin müvafiq qurumlar tərəfindən düzgün aparılması xüsusi dəyər kəsb edir. Ona görə də hər bir gənc ilk növbədə iş dünyasının tələblərini və sahibkarların nə istədiklərini, hansı keyfiyyətlərə üstünlük verdiklərini müəyyən etməlidir.

İnformasiya texnologiyalarının, xüsusi ilə süni intellektin inkişafı artıq əmək bazarında ciddi gərginlik yaradır. Bir sıra peşələr artıq tarixin arxivinə yollanılır. Digər tərəfdən yeni-yeni peşələr yaranır. 2020-ci ilə qədər olan müddətdə xeyli yeni peşələr üzrə mütəxəssislərə ehtiyac olacaqdır. Eyni zamanda, bu gün öyrənilən bir sıra peşələrə ehtiyac olmayacaqdır. Xüsusən İKT yönümlü peşələrə ehtiyac ilbəil artacaqdır.

Ona görə bu günün məktəb şagirdləri peşə seçərkən bu reallıqları nəzərə almalıdırlar. Məktəb müəllimləri də şagirdlərini əsasən perspektivi olan peşələrə yönləndirməlidirlər.




# İlin sonunadək Bakcell 400-ə yaxın yeni 4G (LTE) baza stansiyası istifadəyə verəcək




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti bu ilin sonunadək ölkə ərazisində 400-ə yaxın yeni 4G baza stansiyası istifadəyə verəcək.

Şirkət 2018-ci il ərzində mobil internet xidmətlərini ölkənin regionlarına doğru genişləndiriməyə davam edib. İl ərzində istifadəyə verilmiş 380 LTE (4G) stansiyasından 120-si ölkənin müxtəlif bölgələrində quraşdırılıb. Bunun sayəsində "Bakcell"in yüksək keyfiyyətli 4G xidməti artıq Bakı və Abşeron yarımadası ilə yanaşı, Azərbaycanın 40-a yaxın region və şəhər mərkəzində mövcuddur.

Bu gün Bakcell istifadəçiləri, ümumilikdə, 7000-dən çox baza stansiyası vasitəsilə ölkənin ən etibarlı, ən sürətli və ən iri mobil şəbəkəsinin bütün üstünlüklərindən tam şəkildə yararlanmaq imkanına malikdirlər. Bundan əlavə, əhatə dairəsi və şəbəkə həcmi baxımından ölkənin ən böyük 4G (LTE) şəbəkəsi "Bakcell"ə məxsusdur. Şirkətin 1300-dən çox LTE baza stansiyası ilə saniyədə 225 meqabitə qədər sürəti dəstəkləyən 4G şəbəkəsi gündən-günə genişlənir.

Bakcell öz şəbəkəsinin etibarlılığını və sabitliyini təmin etmək üçün şəbəkə infrastrukturunun təkmilləşdirilməsi istiqamətində müntəzəm olaraq tədbirlər görür. Nəticədə, abunəçilər ən yüksək keyfiyyətli və etibarlı mobil zəng və internet xidmətinin üstünlüklərindən yararlanırlar.

"Bizim gördüyümüz işlərə yerli və beynəlxalq səviyyədə yüksək qiymət verilir. Bu yaxınlarda Bakcell "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Dünyada tanınmış "Ookla" şirkəti tərəfindən təsdiq edilib ki, Bakcell şəbəkəsi ölkədə ən yüksək orta yükləmə sürəti və ən aşağı gecikmə müddətinə (latency time) malikdir. Mobil şəbəkələrin sınaq və təhlili sahəsində dünyanın ən nüfuzlu qurumu tərəfindən toplanmış bu məlumat Azərbaycandakı istifadəçilərin 18.000 ayrı-ayrı unikal cihaz vasitəsilə həyata keçirdiyi 80.000 sınaq (Speedtest platforması üzərindən) əsasında formalaşıb", - deyə Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.

Bakcell özünün yüksək keyfiyyətli mobil şəbəkəsinin modernizasiyası və əhatə dairəsinin genişləndirilməsi istiqamətində geniş miqyaslı işlərin həyata keçirilməsini davam etdirir.

# Bakcell Enerji və İKT üzrə Alman-Azərbaycan biznes-forumunun keçirilməsinə dəstək göstərdi

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell oktyabrın 9-da Bakıda keçirilmiş Azərbaycanda Enerji və İKT üzrə Alman-Azərbaycan biznes-forumunun sponsoru olub.

Forum Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan) tərəfindən Almaniyanın Şərq Komitəsi və Şərqi Avropa İqtisadi Birliyi (Ost-Ausschuss – Osteuropaverein der Deutschen Wirtschaft e.V.) ilə əməkdaşlıq çərçivəsində təşkil olunub. Bu ilki tədbirin əsas mövzuları enerji və İKT sektorunda islahatlar və tərəfdaşlıq üçün perspektivlər təşkil edib. Forumun əsas məqsədi Alman şirkətləri və onların Azərbaycanlı tərəfdaşlarının Enerji və İKT sahələri üzrə layihə və təkliflərini təqdim etmək və işgüzar əməkdaşlıq üçün mövcud imkanları müəyyən etmək olub.




Tədbirdə Azərbaycan hökumətinin rəsmiləri, yerli biznes mühitinin yüksək vəzifəli nümayəndələri, Almaniyanın Azərbaycandakı Səfirliyinin və aparıcı alman şirkətlərinin nümayəndələri iştirak edib. Qonaqlar enerji sektorunda innovasiyalar və iqtisadi islahatlar sahəsində İKT-nin hərəkətverici qüvvəsi barədə panel müzakirələrində iştirak edib.

Qeyd edək ki, Alman-Azərbaycan Xarici Ticarət Palatasının 2018-ci ildən üzvü olan Bakcell şirkəti palatanın əməkdaşlıq və partnyorluq münasibətlərinin stimullaşdırılması və həmçinin Azərbaycanda ümumi biznes mühitinin inkişaf etdirilməsi sahəsində təşkil etdiyi tədbir və təşəbbüslərinə fəal şəkildə dəstək göstərir.

Artıq 20 ildən çoxdur ki, Azərbaycanda fəaliyyət göstərən Bakcell şirkəti hazırda müxtəlif sahələri təmsil edən 3500-dən artıq korporativ müştəriyə xidmət edir. Bakcell ölkə iqtisadiyyatının bir çox sektoru üzrə ən böyük korporativ telekommunikasiya xidmətlərinin təminatçısıdır. Şirkət Azərbaycanda fəaliyyət göstərən yerli və beynəlxalq şirkətləri ən yüksək keyfiyyətli telekommunikasiya həlləri ilə təmin edir. "Bakcell"in peşəkar komandası şirkətlərə, dövlət qurumlarına və digər təşkilatlara mobil telekommunikasiya sahəsində istənilən növ xidməti göstərməyə hazırdır. Bakcell özünün korporativ abunəçilərinə təhlükəsiz və etibarlı rabitə təqdim etməklə daha effektiv fəaliyyət göstərməkdə, müştəriləri ilə əməkdaşlıq və sıx ünsiyyət qurmaqda onlara dəstək göstərməklə ölkə iqtisadiyyatın və ümumi biznes sektorunun inkişafına töhfə verir.

# BİLDİRİŞ

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidənqurulması üzrə Agentlik tərəfindən «Tərtərçayın Tərtər şəhəri və Yuxarı Qarabağ kanalı arasındakı 20 km-lik hıssəsində daşqınlardan müdafiə məcrabərpa tədbirləri layihəsinin hazırlanması» üzrə açıq tenderin 6 sentyabr və 14 sentyabr 2018-ci il tarixlərində «İqtisadiyyat» qəzetində dərc edilmiş keçirilməsi tarixi texniki səbəblərə görə dəyişdirilir. Bununla bildiririk ki, yuxarıda göstərilən açıq tenderin keçirilməsi haqqında dəqiqləşdirilmiş elan "Respublika" qəzetində dərc olunacaqdır.

**Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidənqurulması üzrə Agentliyin Tender Komissiyası, Bakı şəhəri, İbrahimpaşa Dadaşov küçəsi, 260, III mərtəbə**

## Sabah Bakıda ilk Milli Turizm Sammiti keçiriləcək

Oktyabrın 18-də Bakı Konqres Mərkəzində Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə Milli Turizm Sammiti keçiriləcək. Agentlikdən bildirilib ki, tədbirdə Azərbaycanın yeni milli turizm brendinin, loqosunun və şüarının geniş ictimaiyyət üçün təqdimatı olacaq, gələcək planlar və layihələr, qlobal və regional bazarlarda aparılacaq marketing strategiyası haqqında məlumat veriləcək.

Ölkəmizdə akkreditə olunmuş diplomatik korpus təmsilçilərinin, turizm sənayesinin, yerli və xarici tərəfdaş şirkətlərin, ictimaiyyətin, ümumilikdə, 1500-dən çox nümayəndənin təmsil olunacağı sammitdə eyni zamanda, Dövlət Turizm Agentliyinin və agentliyin tabeliyində olan Azərbaycan Turizm Bürosunun kollektivi də təqdim ediləcək.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Dİzayner:**
**Lamiyə NƏBİYEVA**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**